www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 1 iyul 2015-ci il Çərşənbə № 141 (6169) Qiyməti 40 qəpik

**Xəbər**

## Bakıda dəhşətli qəza: bir ailənin 3 üzvü öldü

yazısı səh.13-də

**Gündəm**

### Parlament seçkilərinə hazırlıqlar başlayır



Müxalifət "hakimiyyətin saxtakarlıq planlarını pozmağa çalışacağıq" deyir; Fəzail Ağamalı: "Anti-Azərbaycan qüvvələr sakit durmayacaqlar"

yazısı səh.7-də

### Mərkəzi Bank kredit faizləri ilə bağlı qərar verdi

yazısı səh.12-də

### Partiya sədrləri Avropa Oyunlarının yekunlarını qiymətləndirdilər

yazısı səh.11-də

### Siyavuş Novruzovdan 10 min manat açıqlaması

yazısı səh.7-də

### Bakıda mənzil bazarında hələ də durğunluqdur

yazısı səh.4-də

### Məşhur meyxanaçının gizləndiyi yer bilindi

yazısı səh.13-də

### "Kia"dan "Parabank"dakı "qara para" olayı ilə bağlı açıqlama

yazısı səh.4-də

### Hakimiyyət Qərb mediası ilə anlaşa bilərmi?

yazısı səh.6-da

### "2" alan rayonların sabiq deputatları danışdı

yazısı səh.10-da

### Apteklərdə dərmanlar vahid qiymətə satılmır

yazısı səh.14-də

**Ramazan ayının 14-cü günü**

İftar 21.31. İmsaq (azan) 4.44 (QMİ)

14-cü günün duası: "İlahi, bu gün məni düzgün əməllərdə çaşıb səhv etdiyim işlərə görə məzəmmət etmə! Belə bir gündə Səndən üzr diləyirəm, etdiyim xəta və günahlara görə məni bağışla! Öz qüdrətinlə məni bəlalara hədəf qərar vermə! Ey müsəlmanların Əzəmət və İzzəti!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

## Ermənistan fəlakətin bir addımlığında

# QARABAĞDA "İLDIRIM SÜRƏTLİ" MÜHARİBƏ HAZIRLIĞI

Rusiya hərbi əməliyyatların ilk 3 saatında gözləmə mövqeyi tutarsa, işğalçı ordu layiqli cavabını ala və ağıllana bilər; Kreml satqınlığa meylli Sərkisyanın "qulağının kəsilməsində" niyə maraqlıdır? Dünya birliyi getdikcə daha yaxşı anlayır ki, Qafqaz kimi vacib bir regionda Azərbaycan özündən qat-qat zəif və zəlil Ermənistana torpaqlarını heç bir halda güzəştə getməyəcək...



yazısı səh.5-də

## TANAP və TAP-a daha bir təhlükə - yunan böhranı...

Bu layihə üçün ən önəmli ölkə olan Yunanıstan defolt astanasındadır; Afinanın Avropa Birliyi ilə əlaqələrinin qırılmasından ən çox Rusiyanın "Türk axını" qazana bilər, əgər...

yazısı səh.8-də



Əsabil Qasımov

### Deputatın qohumu qumarda 200 minlik ev uduzub

yazısı səh.13-də



*Hikmət Hacızadə:*

### "Rusiya bizdən "dolya" gözləyir, Qərb isə..."

yazısı səh.9-da



*Sərdar Cəlaloğlu:*

### "Hakimiyyət təmsilçisi ilə görüş bazarlıq deyil"

yazısı səh.11-də

Yeni MÜSAVAT
N 141 (6169) 1 iyun 2015

## Poroşenko Ukraynanın NATO-ya girəcəyi tarixi açıqladı



**Ukrayna prezidenti Pyotr Poroşenkonun fikrincə, onun ölkəsinin NATO-ya girməsinə 6-7 il lazımdır. Avropa.info xəbər verir ki, Ukraynanın islahatlar keçirməsi üçün bu qədər zamana ehtiyacı var. Bundan sonra NATO-ya üzvlük haqda referendum keçirilə bilər.**

"Biz ölkənin iqtisadi, sosial, idarəetmə sahələrində köklü islahatlar aparmaq üçün işləyirik. Bu, uzun işdir, bizə ən azı 6-7 il lazımdır. Hazır olduqda Ukrayna xalqının NATO-ya daxil olub-olmamaq haqda fikrini bilmək üçün referendum keçirəcəyik" - deyə Poroşenko bildirib.

## "Meydan TV"nin əməkdaşlarına qadağa

**İyunun 30-da "Meydan TV"nin əməkdaşlarına Azərbaycanın sərhədini keçməyə icazə verilməyib. "Qafqazinfo"nun verdiyi xəbərə görə, bu barədə məlumatı televiziyanın icraçı direktoru Emin Milli yayıb. O qeyd edib ki, "Meydan TV"nin bir neçə jurnalisti Tiflisə getmək məqsədilə sərhədi keçmək istəyiblər, amma onlara icazə verilməyib:**

"Onlara bildirilib ki, ölkəni tərk etmələrinə rəsmi qadağa var. Əvvəlki olaylardan çıxış edərək düşünürük ki, hazırda «Meydan TV»yə qarşı cinayət işi açılıb və istintaq gedir".

## Qadın voleybol yığmasının baş məşqçisi istefaya göndərilib

**Qadın voleybolçulardan ibarət Azərbaycan millisinin Avropa Oyunlarında medal qazana bilməməsi baş məşqçi dəyişikliyi ilə nəticələnib. Apasport.az saytının məlumatına görə, yığmamızın inkişafında xüsusi pay sahibi olan Faiq Qarayev yenidən komandanın "sükanı arxası"na keçib. O, AVRO-2013-ün final mərhələsi zamanı bu posta gətirilən Aleksandr Çervayovu əvəzləyib.**

Nəticədə sentyabrın 26-da Belçika və Hollandiyada start götürəcək AVRO-2015-də komandamız yenidən təcrübəli mütəxəssisin rəhbərliyi altında oynayacaq. Bu səbəbdən yığmamızın əvvəlki oyununu tapıb, ən azı AVRO-2003-dəki uğurunu təkrarlayıb, hətta onu yaxşılaşdıracağını gözləməyə dəyər. Həmin vaxt 4-cü olan voleybolçularımız bu dəfə mükafata iddialı olacaqlar.

Səhhətində problemlər olan 56 yaşlı Qarayev bunları aradan qaldırmaq üçün bu gün əməliyyat da edilib. Həkim müayinəsindən tam keçdikdən sonra onun meydanda olmasına hansısa problem qalmayacaq.

## Bakıda avtobus piyadanı vurdu

**Bakıda avtobus sürücüsü dəhşətli qəza törədib. Aznews.az xəbər verir ki, qəza Badamdar qəsəbəsində qeydə alınıb. Belə ki, 39 nömrəli marşrutun sürücüsü piyadanı vurub. Hadisə nəticəsində piyadanın beyni dağılıb. Xəstə hazırda 1 saylı Şəhər Kliniki Xəstəxanasındadır. Xəstənin vəziyyətinin ağır olduğu deyilir.**

Səbayel Rayon Polis İdarəsindən faktı təsdiqləyiblər.

Məlumata görə, piyadanı vuran sürücü qaçıb gizlənib. Hazırda sürücünün tapılması istiqamətində işlər gedir.

### Başsağlığı

**Müsavat Partiyasının başqanı Arif Hacılı və partiyanın Divanı Sabunçu rayon təşkilatının Şura üzvü**
**İsa Haşımovun**
**vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.**

**

**Müsavat Partiyasının başqanı Arif Hacılı və partiyanın Divanı Cəlilabad rayon təşkilatının sədri Akif Bədirliyə bacısı**
**Südabə xanımın**
**vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**


## "Elm" tədris mərkəzi

**MAGIC LANGUAGES**

- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05


# Azərbaycanlı milyarder ABŞ-ın "qara siyahı"sında

**ABŞ-ın Maliyyə Nazirliyi yanında Xarici Aktivlərə Nəzarət İdarəsi (Office of Foreign Assets Control - OFAC) Rusiyanın neft-qaz şirkətləri barədə yeni sanksiyaların qüvvəyə mindiyini elan edib.**




Publika.az xarici mediaya istinadən xəbər verir ki, sənəd OFAC saytında dərc edilib.

"Qazprom", "LUKoyl", "Transneft", "Qazprom neft" və "Surqutneftqaz" şirkətləri ilk dəfə sanksiyalar siyahısına salınıb. Məhdudlaşdırıcı ölçülər dərin sular və Arktika şelfində, həmçinin şist qatlarında karbohidrogen ehtiyatların mənimsənilməsi üçün istifadə edilən mallar və texnologiyaların Rusiyanın neft-qaz şirkətlərinə satışını qadağan edir.

Dünən isə Kanada Rusiyanın 14 hüquqi və 3 fiziki şəxsinə qarşı iqtisadi sanksiyalar tətbiq edib. Kanadanın "qara siyahı"nda azərbaycanlı Vahid Ələkbərovun prezidenti olduğu "LUKoyl" neft şirkəti yer almayıb. Kanada "Qazprom", "Qazprom neft", "Surqutnefteqaz", "Transneft" şirkətlərinə sanksiyalar tətbiq edib.

Xatırladaq ki, Avropa Birliyi, ABŞ və Kanada 2014-cü ilin yazından başlayaraq, Ukraynada vəziyyətlə əlaqədar Rusiyaya qarşı sanksiyaları tətbiq etməyə başlayıb. Rusiyaya qarşı məhdudlaşdırıcı ölçülər 22 iyun 2015-ci ildə Avropa Birliyi tərəfindən uzadılıb. Rusiyanın Xarici İşlər Nazirliyi bu qərarı "abırsız və rusofob" addım adlandırıb.



## Hərbi çağırış başladı

**Ölkə başçısının sərəncamına əsasən, Azərbaycan Respublikası vətəndaşları iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılacaq və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması həyata keçiriləcək.**

Moderator.az xəbər verir ki, Söhbət 1997-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1980-1996-cı illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikasının vətəndaşlarından gedir.

Qeyd edək ki, artıq çağırışçılar hansı hərbi hissəyə düşəcəklərini qabaqcadan öyrənə bilirlər. Onlar bunu Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin elektron ünvanına (http://exidmet.seferberlik.gov.az/Registration/Military) baxmaqla hərbi xidmətə hansı qoşun növündə və hərbi hissədə xidmət edəcəklərini müəyyənləşdirirlər. Bunun üçün yalnız şəxsi məlumatları - ad, soyad, doğum tarixi və qeydiyyatda olduğu rayonu göstərmək kifayətdir.

Sayt Müdafiə Nazirliyinin hərbi hissələrində xidmətə başlayacaq şəxslərə yalnız xidmət edəcəkləri hərbi birləşmənin nömrəsini təqdim edir.

## "Jurnalistlərə ev o zaman veriləcək ki..."

**Mətbuat nümayəndələri üçün tikilən yeni bina bu il istifadəyə verilməyəcək. Moderator.az-ın məlumatına görə, bunu azvision.az-a Mətbuat Şurasının sədri Əflatun Amaşov deyib. MŞ sədri bildirib ki, bu il jurnalistlərə ev verilməsi gözlənilmir: "Hazırda tikilən bina əvvəlki binadan böyükdür. Mənzillərin sayı da əvvəlki bina ilə müqayisədə çoxdur. Odur ki, hazırda binada işlər gedir.**

Qeyd edim ki, əvvəlki binada 156 mənzil var idisə, yeni binada bu rəqəm 250-yə yaxındır. Bina nə zaman tikilib qurtaracaqsa, o zaman da jurnalistlərə veriləcək"-deyə Əflatun Amaşov bildirib.

Qeyd edək ki, bu il jurnalistlər üçün tikilən evlər ötən ilki ilə müqayisədə 109 mənzil çox olacaq. Yeni tikilən bina 17 mərtəbədən ibarətdir. Binada mənzillərin sayı 255-dir və 3 girişi var.

## Xodorkovski qətl sifarişində ittiham olunur

**Sabiq siyasi məhbus, milyarder Mixail Xodorkovski Nefteyuqansk meri Vladimir Petuxovun qətlinin sifarişində şübhəli bilinir. Avropa.info xəbər verir ki, bu açıqlama ilə Rusiya Federasiyasının İstintaq komitəsinin rəsmi nümayəndəsi Vladimir Markin çıxış edib. Markin deyib ki, Xodorkovskinin xaricdə olması onun sorğu-suala tutulmasına mane olmayacaq.**

Qeyd edək ki, Nefteyuqansk şəhər meri Vladimir Petuxov 1998-ci ildə YUKOS şirkəti ilə aralarında olan anlaşılmazlıq nəticəsində qətlə yetirilib.

## "Space"də biabırçılıq

**Teleaparıcı Vüsalə Kərimovanın təqdim etdiyi "Günaydın" verilişində qalmaqallı anlar yaşanıb. "Qafqazinfo"nun məlumatına görə, verilişin qonağı olan yazar Əziz Musaoğlu müğənni Mətanət Əsədovanın geyiminə iradını bildirib və ona abırlı geyinməyi təklif edib.**

Yazarın sözlərindən qəzəblənən müğənni əvvəl onun üzərinə hücum edib.

Daha sonra mübahisəni davam etdirən Mətanət yazarlar haqda mübahisə yaradacaq fikirlər səsləndirib və bildirib ki, müğənnilər olmasa, yazarlar tanınmaz, onların yazıları oxunmaz.

Əzizin "Mən aliməm, sən də fahişəsən" sözləri müğənnini özündən çıxarıb Əsədova yazarın üzərinə hücum edib və bildirib ki, onu məhkəməyə verəcək.

## Biznesmeni oğurlayıb 10 milyon dollar tələb edən 3 azərbaycanlı tutuldu

**Rusiya Daxili İşlər Nazirliyinin əməkdaşları xüsusi təyinatlı "Rıs" dəstəsinin döyüşçülərinin dəstəyi ilə Moskva regionunda xüsusilə ağır cinayətlər törədən mütəşəkkil cinayətkar qruplaşmanın üzvlərini həbs ediblər.**

Mütəşəkkil qruplaşmanın üzvləri bu ilin may ayının sonlarında Moskvada 26 yaşlı biznesmeni oğurlayıblar və onun azad edilməsi üçün 10 milyon dollar tələb ediblər. Əks halda, biznesmenə divan tutacaqları ilə hədələyiblər.

Bu faktla bağlı cinayət işi qaldırılıb. Əməliyyat nəticəsində biznesmeni oğurlayan 3 Azərbaycan vətəndaşı Moskva vilayətinin Solneçneqorsk rayonunun kəndlərinin birində həbs olunub. Onların oğurladığı biznesmen azad edilib.

## Jurnalist xanım Müsavatda komitə sədri oldu

**Müsavat Partiyasının Divanında Müsavat Qadınlar Birliyinin növbədənkənar IV Ümumi yığıncağının hazırlanması və keçirilməsi üzrə Təşkilat Komitəsi yaradılıb.**

Ötən gün TK-nın ilk iclası keçirilib. Divan üzvü, Nailə (Alya) Yaqublu Təşkilat Komitəsinin sədri, Məclis üzvü Könül Alıyeva isə sədr müavini seçilib. Komitə üzvləri arasında iş bölgüsü aparılıb. Ümumi yığıncağın 18 iyul 2015-ci il tarixdə keçirilməsi qərara alınıb.

Birliyin sədrliyinə, NTK və sərbəst şura üzvlüyünə namizədlərin irəli sürülməsi üçün 30 iyun saat 12:00-dan 13 iyul saat 13:00-a kimi vaxt müəyyən edilib. Ərizələrin partiyanın Təşkilat Şöbəsinə təqdim edilməsi nəzərdə tutulub. (qafqazinfo)

## Sürücü sükan arxasında öldü

**Salyan rayonunda bədbəxt hadisə baş verib. Virtualaz.org saytının Şirvan bürosu xəbər verir ki, rayonun Arbatan kəndi ərazisində 60 yaşlı sürücü - Saleh Nurəddin oğlu İsmayılov idarə etdiyi "BMW" markalı avtomaşının sükanı arxasında dünyasını dəyişib.**

Yaxınlarının virtualaz.org saytına verdiyi məlumata görə, S.İsmayılov ürək çatışmazlığından əziyyət çəkirmiş.

Hadisə zamanı avtomobil çox aşağı sürətlə hərəkət etdiyindən qəza baş verməyib.

## İyulda hava necə olacaq?

**Azərbaycanda iyul ayına olan hava proqnozu açıqlanıb. Virtualaz.org Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinə istinadən bildirir ki, iyul ayında havanın orta aylıq temperaturunun iqlim normasına yaxın, bəzi yerlərdə isə bir qədər yüksək olacağı gözlənilir. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın olacağı ehtimalı var.**

Bakıda və Abşeron yarımadasında orta aylıq temperaturun 25-28 dərəcə isti (gecələr 22-27, gündüzlər 30-35, bəzi günlərdə 38-40 dərəcə isti) olacağı gözlənilir, bu da iqlim normasına yaxın və 1 dərəcə yüksəkdir. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın (norma 2-3 mm) olacağı gözlənilir.


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Günün içindən






# Ölkədə "Sevgililər günü" qeyd edilib

## Əvəz Zeynallı: "Biz 30 iyunun artıq türk və İslam dünyasına çıxışını düşünürük, bunu planlaşdırırıq"

**İyunun 30-da ölkədə "Sevgililər günü" qeyd edilib. 1990-cı ilin 20 yanvarında Sovet Ordusunun Azərbaycanda həyata keçirdiyi qətliamda ərinin şəhid olmasından sonra intihar edən Fərizənin toy günü qeyd olunur. Bu günlə bağlı iyunun 29-da Bakıda "Xudafərin" şadlıq sarayında törən keçirilib, iyunun 30-da isə "Sevgililər günü gəzintisi" təşkil edilib. Gəzinti zamanı İlhamla Fərizənin Şəhidlər Xiyabanındakı məzarları ziyarət edilib.**

"Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallının təşəbbüsü ilə keçirilən bu tədbirə artıq əvvəlki illərlə müqayisədə xeyli maraq var. Əvəz Zeynallı isə bildirir ki, yaxın illərdə bu günün ölkə sərhədlərindən kənarda da qeyd olunmasını istəyir və buna çalışır: ""Sevgililər günü" ölkəmizdə çox yüksək səviyyədə qeyd olunur deyə bilmərəm. Maraq da çox yüksək deyil. Çünki həm 14 fevral, həm də 30 iyun müəyyən dərəcədə qeyd olunur. Amma 30 iyun bütün digər günlərə nisbətdə böyük sürətlə Azərbaycan cəmiyyətinə yayıldı. Hesab edirəm ki, yaxın gələcəkdə, yaxın illərdə 30 iyun tarixdə, təqvimdə layiqli yerini tutacaq və çox ciddi şəkildə ölkədə qeyd olunacaq".

**O, 30 iyunun geniş şəkildə qeyd edilə bilməməsinin səbəblərindən də söz açıb:** "Siz nəzərə alın ki, 14 fevralın arxasında böyük media qrupları, böyük dövlət maraqları, çox böyük korporasiyaların maraqları var. Amma 30 iyunun arxasında sadə, kasıb, kimsəsiz bir qrup var, qəzet var, balaca bir sayt var. Yəni biz bu az məhdud imkanlarımızla 30 iyunu bu həddə gətirib çıxarırıqsa, ümid edirəm ki, Azərbaycan mediası elliklə bu məsələyə sahib çıxacaq. Azərbaycan televiziya kanalları buna sahib çıxacaq. Azərbaycan cəmiyyəti, Azərbaycan dövləti, dövlət rəhbərliyi 30 iyunu hər il daha da inkişaf etdirəcək. Təbii ki, 30 iyunu biz Azərbaycanın sərhədləri ilə məhdudlaşdırmırıq. Biz 30 iyunun türk və İslam dünyasına çıxışını artıq düşünürük, bunu planlaşdırırıq, yəqin o da olacaq. Fikirləşirəm ki, 30 iyunun arxasında ciddi media dəstəyi və elektron informasiya dəstəkləri olarsa, daha güclü olacaq, daha da yayılacaq".



**Ə.Zeynallı bu günün məhz Fərizənin intihar etməsi səbəbindən keçirilməsinə qarşı çıxanlara da səslənib:** "Buna dəfələrlə münasibət bildirmişəm. Fərizənin intiharı normal insanın məişət intiharından çox fərqlidir. Fərizənin intiharı çox böyük milli mübarizənin davamı idi. Azərbaycan təklənmişdi, Azərbaycana ordu yeridilmişdi. Fərizənin ən çox sevdiyi, arxalandığı, bütün dünyası olan İlham da tankın qarşısında çıxmışdı və tank gülləsindən vəfat etmişdi. Fərizə özünü yadellilərin, Azərbaycana hücum edənlərin təcavüzündən qoruyaraq sevdiyinə qovuşdu. Fərizə İlhamsız yaşaya bilmədiyi üçün getdi. Tamam fərqlidir. Fərizənin intiharı bizim normal anladığımız, qəbul etdiyimiz bir intihar deyil. Fərizə özünü İlhama fəda etdi. Bir var evdə çörək olmaya, vəziyyət yaxşı olmaya, ərin üzünə yaxşı baxmaya, sən gedib intihar edəsən. Bu cür intiharın heç bir səbəbi Fərizədə yox idi. O baxımdan, biz Fərizənin intiharı mövzusunu gündəmə gətirməməliyik. Biz Fərizənin böyük sevgisini gündəmə gətirməliyik. Fərizə o qədər çox sevirdi ki, İlhamsız yaşaya bilməyəcəyini anladı və intihar etdi. Fərizə Azərbaycanın üzərinə gələn çox böyük bir xarici təcavüzün qarşısında bir millət kimi yalnız qalmışdı. O zaman meydanlarda insanlar ağlayırdı- "tək qaldıq deyə". Üstümüzə rus tankı gəlmişdi, bizi darmadağın etmişdi, dünyadan dəstəyimiz yox idi. Millət Azadlıq meydanında tənha qalıb ağlayırdı. Fərizə həmin psixologiyada milli mübarizənin davamını etdi. Fərizəni belə, bu böyük fədakarlığı, bu böyük sevgini belə cılızlaşdırmaq, belə endirmək, bu aspektdən yanaşmaq yanlışdır. Təbii ki, gənclərə bunun izahını verəndə, qəbul edəcəklər. Siz düşünün, müharibə zamanı Ermənistan ordusu, saqqallı yaraqlılar Azərbaycanın bölgələrini bir-bir işğal edirdi. Bizim qadınlarımız namusunu qorumaq üçün canlarına qıydılar. Biz bunu necə qiymətləndirməliyik? Bu, intiharmı? Bunlar o vaxt İslam ordularında da olub, böyük, cəsur qadınlar olub. Düşmən əlinə keçməmək üçün özlərini öldürüblər. İntiharmı bunlar? Bu mənada intihar deyil. O baxımdan, Azərbaycan insanı Fərizənin intiharı mövzusunu digər bütün intiharlardan ayırmalıdır. Bu, intihar deyildi. Böyük bir millətin çox böyük bir təcavüzə qarşı olan əks-sədası, inikası idi. Fərizə İlhamdan sonra yaşaya bilməyəcəyi üçün canını fəda etdi. Fərizə intihar etmədi. Bunu normal məişət intiharı hesab etmirəm".

Qeyd edək ki, 1990-cı ildə yanvarın 19-dan 20-nə keçən gecə Sovet Ordusu Bakıda qətliam törədib. Azərbaycanın ərazi bütövlüyünü pozmaq cəhdlərinə, keçmiş SSRİ rəhbərliyinin Azərbaycanla bağlı apardığı qərəzli siyasətə, yerli rəhbərliyin xalqın mənafeyinə zidd mövqedə durmasına qarşı etiraz əlaməti olaraq küçələrə çıxmış dinc əhaliyə divan tutmaq məqsədilə Bakıya və respublikanın digər rayonlarına sovet hərbi hissələri yeridildi. Dinc əhalinin kütləvi etiraz aksiyalarının ağır hərbi texnikanın köməyi ilə vəhşicəsinə dağıdılması təkcə süquta uğramaqda olan sovet siyasi sisteminin qorunması cəhdi kimi deyil, həm də azərbaycanlıların tarixi torpaqlarından sıxışdırılıb çıxarılması ilə bağlı Çar Rusiyasının əsrlərlə apardığı mənfur siyasətin yeni şəraitdə davamı kimi qiymətləndirilir. Qəddarlıqla keçirilən cəza tədbirləri nəticəsində heç bir günahı olmayan 133 dinc sakin öldürülüb, 744 nəfər yaralanıb, 841 nəfər qanunsuz həbs olunub. İlham Allahverdiyev də bu faciədə həyatını itirib. Onun həyat yoldaşı Fərizə Nəbiyeva isə bu hadisədən sonra intihar edərək həyatına son qoyub.

❑ Röya RƏFİYEVA




# Beynəlxalq reytinq agentliyi Azərbaycan bankları haqda bədbin proqnoz açıqladı

**"Moody's" beynəlxalq reytinq agentliyi Azərbaycanın bank sisteminin reytinqini "stabil"dən "neqativ"ə dəyişib.**

Virtualaz.org saytı xəbər verir ki, bu barədə agentliyin yaydığı press-relizdə bildirilir. Azərbaycanın bank sisteminin "Moody's" tərəfindən hazırlanan icmalına əsasən proqnozun mənfiyə doğru dəyişməsi dünya bazarlarında neftin qiymətinin aşağı olması və milli valyutaya təzyiqlərdir.

Belə ki, manatın devalvasiyası nəticəsində Azərbaycan banklarının aktivlərinin keyfiyyəti azalıb, onların gəlirliliyi və fondlaşması aşağı düşüb.

Agentliyin proqnozu Azərbaycan banklarının yaxın 12-18 aylıq vəziyyətini əks etdirir. "Moody's" gözləyir ki, bu ilin sonuna doğru Azərbaycan banklarının bütün problemli kreditlərinin həcmi ümumi kredit portfelinin həcminin 15 faizini təşkil edəcək. 2014-cü ilin yekunlarına əsasən problemli kreditlərin həcmi 11,4 faiz idi.

Bundan əlavə, manatın devalvasiyasından sonra xarici valyuta ilə olan aktivlərin yenidən qiymətləndirilməsi nəticəsində ölkə banklarının kapitalının adekvatlığı 2 faiz dərəcəsi aşağı düşə bilər.

Bu il martın 31-nə olan məlumata əsasən, Mərkəzi Bank bankların kapitalının adekvatlığını 17,3 faiz qiymətləndirib. Minimal tələb 12 faizdir.

Agentliyin ekspertlərinin proqnozlarına əsasən bu il Azərbaycanda ÜDM artımı 1 faiz təşkil edəcək, gələn il isə iqtisadi artımın 1,7 faiz olacağı proqnozlaşdırılır.




# "Bakı Metropoliteni" sədrinin müavini vəzifəsindən azad edildi

**"Bakı Metropoliteni" QSC sədrinin müavini Zaur Babayev vəzifəsindən azad edilib.**

APA-nın məlumatına görə, Azərbaycan prezidenti İlham Əliyev bununla bağlı müvafiq sərəncam imzalayıb.

Sərəncam iyunun 17-də imzalanıb.

# Hakimiyyətə Qarabağ savaşı çağırışı edildi

## "Müharibə! Ya Qarabağ, ya ölüm!"

**Qarabağ Azadlıq Təşkilatı (QAT) İdarə Heyətinin iclasında hazırkı vəziyyət, bir sıra digər məsələlər, xüsusi olaraq isə Avropa Oyunlarının yekunları müzakirə olunub. Avropa Oyunlarının yekunlarına dair çıxışlarda, müzakirələrdə və qərarda bu beynəlxalq tədbirin əhəmiyyəti, yüksək təşkilatçılıq, Azərbaycanın təbliği, idmançılarımızın nailiyyətləri müsbət qiymətləndirilib, böyük hadisə kimi dəyərləndirilib.**

Eyni zamanda ermənilərin bu tədbirə dəvət olunması, onların iştirakı ilə bağlı keçirilən etiraz aksiyalarının qarşısının qəddarlıqla alınması, QAT üzvlərinə zor tətbiq olunması pislənilib. QAT-ın mətbuat xidməti xəbər verir ki, ermənilərin bu tədbirə dəvət olunmasının çox yanlış addım olduğu qeyd olunub. "Onsuz da beynəlxalq təşkilatlar və ermənilər Azərbaycanın bu jestini dəyərləndirmək səviyyəsində deyildilər. Onlar Azərbaycanın bu hərəkətini zəiflik və təslimçilik əlaməti kimi qəbul edirlər. Bir sıra beynəlxalq və regional təşkilatların, bəzi Avropa dövlət başçılarının, həmçinin ermənilərin, işğalçı Ermənistanın rəhbərinin oyunlar zamanı və sonra verdikləri bəyanatlar dediklərimizi təsdiq edir. Biz hesab edirik ki, Azərbaycan hakimiyyəti və cəmiyyəti bu məsələdə səhv yol verdi və bu səhv bir daha təkrar olunmamalıdır. Biz düşmənə qarşı prinsipial mövqeyimizdən geri çəkilməməliyik. Düşmən həmişə düşməndir, onlara bizim ölkəmizdə yer yoxdur, rədd olub getməlidirlər. Bu oyunlar cəmiyyətin birliyini nümayiş etdirdi. Məhz bu birliyə söykənərək cəmiyyətimizi müharibəyə hazırlamalı, hər kəs bu yöndə öz vəzifəsini yerinə yetirməlidir"-deyə, QAT-ən sənədində deyilir.

**Təşkilat hesab edir ki, Azərbaycan Avropa Oyunları ilə həm də dünyaya öz bacarığını, gücünü nümayiş etdirdi:** "Azərbaycan güclü və qüdrətli bir dövlətdir. Ona görə də hakimiyyət ləngimədən hərbi əməliyyatlara, müharibəyə başlamalı, torpaqlarımızı işğaldan azad etməlidir. Bu, bütün vicdanlı azərbaycanlıların tələbidir! Bizim başqa tələbimiz yoxdur, heç bir sosial-iqtisadi, siyasi tələbə yer yoxdur! Yalnız bir tələbimiz var: "Müharibə! Ya Qarabağ, ya ölüm!"

❑ Vüqar MURAD

YENİ MÜSAVAT
N 141 (6169) 1 iyul 2015

**Ötən saylarımızdan birində "Parabank"dakı intihar və həbslə bağlı sensasion məktub" sərlövhəli yazı təqdim etmişdik. Sumqayıt sakini Vəzihə Cəbrayılovanın məktubuna əsasən hazırlanan yazıda "Parabank"da "Kia Motors Az" MMC-nin hesabatlarda yer almayan vəsaitlərinin saxlanıldığı haqda məlumatlar yer alırdı.**

# "Kia"dan "Parabank"dakı "qara para" olayı ilə bağlı açıqlama

## "Avtomobil satışından əldə olunan nağd pul saxlanmaq üçün "Nəsimi" filialındakı bunkerə göndərilir"

Məktub müəllifi prezidentə müraciətlə bildirirdi ki, nəvəsi Ülvi Kazımov 2010-cu ilin sentyabrından 2012-ci ilin oktyabrınadək "Parabank" ASC-nin "Nəsimi" filialında xəzinədar vəzifəsində işləyib. Filialda işə başladığı gündən filialın xəzinəsinin bunkerində banka məxsus qanuni pul vəsaitləri ilə yanaşı, "Kia Motors Az" MMC-yə məxsus heç bir yerdə rəsmi qeydə alınmayan, bankın mühasibat uçotuna daxil edilməyən, dövlətdən gizlədilmiş 35-40 milyon manat gizli yolla saxlanılıb. V.Cəbrayılova gizli pul saxlanılmasında MMC-nin faktiki rəhbəri Səxavət Səfərovun olduğunu, onun etibarlı şəxsi Fərhad Abbasovun həmin məbləğin 1 milyon manata yaxınını gizli yolla götürərək xərclədiyini iddia edirdi. Qeyd edirdi ki, məsələnin üstü açılandan sonra F.Abbasov intihar edib və onun əvəzinə nəvəsini həbs ediblər.

**"Kia Motors Az" MMC redaksiyamıza mövqeyi əks olunan məktub yollayıb. Məktubda deyilir:**




"Kia Motors Az" MMC "Parabank" ASC-nin inkassasiya xidmətindən istifadə edir, bunkerdə pul və qiymətlilərin saxlama yeri icarəsi haqda imzalanmış müqaviləyə əsasən, MMC mütəmadi olaraq bankdan icarəyə götürdüyü inkassasiya avtomobili vasitəsilə öz salonlarından avtomobil satışından əldə olunan nağd pul vəsaitlərini toplayaraq MMC-nin kassasına mədaxil etmiş və sonradan saxlamaq üçün "Parabank" ASC-nin "Nəsimi" filialındakı saxlanc anbarına (bunkerə) göndərir. Bunkerdə toplanan vəsait MMC-nin rəhbərliyi tərəfindən verilən göstərişlərə əsasən mütəmadi olaraq bankdakı rəsmi hesablaşma hesabına qoyulmuş və oradan da lazımi istiqamətlərə *(alınmış avtomobillərin dəyərinin, gömrük rüsumlarının və s. ödənilməsinə)* köçürülmüşdür. Bütün bunlar öz əksini rəsmi sənədlərdə tapmışdır.

2012-ci ilin iyul ayında "Parabank" ASC-nin "Nəsimi" filialının köçməsi ilə əlaqədar MMC-nin rəhbərliyi saxlancda olmalı olan 2 milyon 829 min 132 manat pul MMC-nin bank hesabına qoyulması barədə göstəriş vermişdir. Lakin 06.07.2012-ci il tarixdə bankın saxlanc anbarından (bunkerindən) bankın "Nəsimi" filialındakı MMC-yə məxsus hesablaşma hesabına 2 milyon 140 min manat nağd pul vəsaiti qoyulmuşdur. Bankın saxlanc anbarında MMC-yə məxsus olan 689 min 132 manat nağd pul vəsaiti əskik gəldiyi üçün bankın "Nəsimi" filialındakı MMC-yə məxsus hesablaşma hesabına qoyulmamışdır.

Məlum olmuşdur ki, "Parabank" ASC-nin "Nəsimi" filialının xəzinədarı və mühasibi əlbir olaraq, gəlir əldə etmək məqsədilə sonuncunun qohumu vasitəsilə MMC-yə məxsus pul vəsaitlərini faizlə borca vermişdirlər. Günahlarını tam etiraf edib, mənimsənən məbləği yaxın vaxtlarda ödəməyi söz vermişdirlər. 2013-cü ilin sentyabr ayınadək müxtəlif vaxtlarda ümumilikdə 161 min 595 manat ödənilmişdir. Sonra isə ödənişlər dayandırılmış, bu şəxslər müxtəlif bəhanələrlə ödənişdən boyun qaçırmışdırlar. Uzun müddət ödəniş aparılmadığından "Kia Motors Az" MMC-nin direktoru Əşrəf Səxavət oğlu Səfərov Bakı Şəhər Prokurorluğunda davam edən cinayət işinə dair ifadə vermiş və 3 iyun 2015-ci il tarixdə "Kia Motors Az" MMC istintaq tərəfindən zərərçəkmiş qismində tanınmışdır.

Bundan sonra bankın "Nəsimi" filialının mühasibi etiraf etdiyi ümumilikdə 237 min manat məbləği "Kia Motors Az" MMC-nin direktoru Ə.Səfərova protokol tərtib edilməklə *(4 iyun 2015-ci il tarixdə 10000 manat və 9 iyun 2015-ci il tarixdə 227000 manat)* ödəmişdir. Xəzinədar Ülvi Kazımov isə Bakı Şəhər Prokurorluğu tərəfindən Azərbaycan Respublikası CM-in 179.3.2-ci maddəsi ilə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb edilərək barəsində Səbayel Rayon Məhkəməsinin qərarı ilə həbs-qətimkan tədbiri seçilmişdir. Hazırda göstərilmiş cinayət işi davam etməkdədir.

Qeyd etmək istəyirik ki, çoxsaylı dövlət məmurlarına və orqanlarına, həmçinin kütləvi informasiya vasitələrinə göndərilmiş məlumat və müraciətlər həbs edilmiş şəxsin anası Maya Kazımova və nənəsi Vəzihə Cəbrayılovanın adından yazılmış eyni mətnli qərəzli və böhtan xarakterli məlumatlardır. Bu üsuldan təzyiq vasitəsi kimi istifadə edərək Ülvi Kazımovun anası və nənəsi onu məsuliyyətdən azad etmək məqsədi güdürlər.

Güman edirik ki, istintaq zamanı bütün qaranlıq məqamlara aydınlıq gətiriləcək, MMC-yə dəymiş ziyana görə günahkar şəxslər məsuliyyətə cəlb ediləcək.

İstintaq tam bitəndən sonra MMC-nin illərlə əldə etdiyi imicinə dəymiş xələlin aradan qaldırılması üçün bütün lazımi tədbirlərin görülməsi və tərəfimizdən kütləvi informasiya vasitələrinə ətraflı məlumat verilməsi nəzərdə tutulur".

❑ E.MƏMMƏDƏLİYEV



# "Biz ermənilərdən heç vaxt yumurta almamışıq"

**Virtualaz.org saytının Türkiyənin səhmdarlarından ikisi erməni olan "Emre Piliç" broyler şirkətinin Azərbaycana damazlıq yumurta və toyuq satdığına dair araşdırmasına İmişlidən reaksiya gəlib.**

Adı həmin şirkətlə işgüzar təması olduğu ehtimal edilən Azərbaycan broyler şirkətlərinin siyahısında yer alan "İmişli Quşçuluq" şirkətinin sahibi Əlif Heydərov redaksiyamızla əlaqə saxlayaraq bildirib ki, onun şirkəti heç vaxt "Emre Piliç" şirkətindən damazlıq yumurta almayıb və bu şirkətlə hər hansı işgüzar təması olmayıb.

"Bizim özümüzün damazlıq yumurta fabrikimiz var. 2012-ci ildə cənab prezident İlham Əliyev özü onun açılışında iştirak edib. Nə indi, nə də əvvəllər "Emre Piliç" şirkətindən yumurta almamışıq. Bizim ermənilərin şirkəti ilə hər hansı əlaqəmiz ola bilməz, mümkün deyil"- deyə Əlif Heydərov bildirib.

Qeyd edək ki, Türkiyə mənbələrindən "Emre Piliç"lə işgüzar təmasları olan Azərbaycan firmalarının adlarının yer aldığı siyahını əldə etsək də həmin firmaların bu şirkətlə əməkdaşlığının hansı formada olduğu orada göstərilməmişdi. Və saytımız araşdırma apararaq Azərbaycandan hansı broyler şirkətlərinin "Emre Piliç"lə alış-verişinin olduğunu üzə çıxarıb.

# Bakıda mənzil bazarında hələ də durğunluqdur

## Ekspert: "Bu il mənzillərin qiymətinin 10 faizə qədər ucuzlaşacağı gözlənilir"

**Manatın devalvasiyasından sonra ölkə iqtisadiyyatında yaranan böhran mənzil bazarında da durğunluğa səbəb oldu. Dolların bahalaşması ilə mənzillərin qiyməti artsa da, alıcı yoxdur. Bəs, görəsən Avropa Oyunlarından sonra ev bazarındakı durğunluq aradan qalxacaqmı?**

"Yeni Müsavat"ın suallarını cavablandıran mənzil məsələləri üzrə ekspert Ramil Osmanlı bildirdi ki, mənzil bazarında vəziyyət dəyişməz olaraq qalır: "Bazarda kəskin bir passivlik müşahidə olunmaqdadır. Hesab etmirəm ki, yaxın 1 ay müddətində daşınmaz əmlak bazarında ciddi hadisələr baş versin. Yay mövsümü adətən daşınmaz əmlak bazarında aktivliyin azalması ilə müşahidə olunur. İndiki halda bu tendensiyanın dəyişməsi üçün hər hansı əsas görmürəm. Cari ilin payız və qış aylarında əmlak bazarında durumun necə olacağına gəlincə, bu hökumətin qəbul edəcəyi qərarlardan asılı olacaq. Dünya bazarındakı vəziyyət və ümumi iqtisadi durum da mənzil bazarına təsir edəcək".

Hazırkı durğunluğun səbəblərinə toxunan ekspert Ramil Osmanlı bildirdi ki, ilin əvvəlindən başlayaraq ölkə iqtisadiyyatında yaşanan böhran səbəbindən daşınmaz əmlak bazarına yatırımların həcmi azalmağa doğru gedir: "Neftin qiymətinin düşməsi hökuməti daşınmaz əmlak bazarına ayırdığı vəsaitlərin həcminə mənfi təsir göstərib. Bütün bunlar bazara investisiya axınının azalmasına, tələbatın azalması isə qiymət enmələrinə gətirib çıxarıb. Bəzi iqtisadçıların ilin sonuna qədər daşınmaz əmlak bazarında kəskin qiymət azalmalarının olacağı ilə bağlı proqnozları da bazara ciddi



təsir edir. Hər dəfə bu cür proqnozlardan sonra müəyyən qədər alıcı kütləsi gözləmə mövqeyinə keçir və daşınmaz əmlaka ayırdığı vəsaiti gələcəkdə yatırım edilməsi üçün saxlayırlar. Bu da bazarda durğunluğun yaranmasına səbəb olur".

İqtisadçı ekspert Vüqar Bayramlı isə "Yeni Müsavat"a açıqlamasında mənzillərin ucuzlaşması tendensiyasının ilin sonuna qədər davam edəcəyini bildirdi: "Əmlak bazarında durğunluq davam edir. Bizim bazarda apardığımız monitorinqlər də göstərir ki, 2014-cü ilin sentyabrından başlayaraq daşınmaz əmlakın qiymətində azalmalar müşahidə edilir. Aylıq qiymət azalması təxminən 8 faizə yaxındır. Güman olunur ki, 2015-ci ilin sonunda əmlak bazarında qiymətlər təxminən 10 faizə yaxın aşağı düşəcək. Həm mövsümi faktorlarla bağlı olaraq, həm də mövcud iqtisadi durum nəzərə alınaraq qiymətlərin artması gözlənilmir. Bazarda alıcıların sayı azalıb. Bundan əlavə ipoteka şərtlərinin sərtləşdirilməsi və ilkin ödəniş kimi məbləğin yarısının tələb edilməsi də ipotekadan istifadə edənlərin sayının azalmasına gətirib çıxarır. Bazarda təklif olduğu kimi qalıb, lakin tələb azalıb. Düşünürəm ki, Avropa Oyunları ilə əmlak bazarındakı qiymət arasında müəyyən uzlaşma var. Avropa Oyunları kirayə əmlak bazarında qiymətləri artırmışdı, çünki ölkəmizə gələn turistlər burada kirayə qalırdılar. Lakin oyunların keçirilməsi əmlak satışı bazarına təsir göstərməyib".

Ekspertin proqnozlarına görə, yay aylarında da durğunluq davam edəcəyi, qiymətlərin azalacağı gözlənilir: "Əgər dünya bazarında neftin qiymətində artım olarsa, bundan əlavə Rusiyada iqtisadi vəziyyət stabilləşərsə, Azərbaycanda daşınmaz əmlak bazarında qiymətlər arta bilər. Lakin bu iki faktordan heç biri baş verməzsə, o zaman mənzillərin də qiyməti azalacaq. Ümumilikdə onu deyə bilərik ki, bu il mənzillərin qiymətinin 10 faizə qədər ucuzlaşacağı gözlənilir".

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 141 (6169) 1 iyul 2015

# Ermənistan fəlakətin bir addımlığında

**Avropa Oyunları ərəfəsi cəmiyyətdə Ermənistanın bu mötəbər yarışa xələl gətirmək üçün cəbhədə təxribatlar törədə biləcəyi ilə bağlı narahatlıq vardı. Amma hələ bir neçə ay əvvəldən cəbhə xəttində üstünlüyü ələ alan Azərbaycan ordusu düşmənin təxribatlarına imkan vermədi. Avropa Oyunlarının açılış məşəlinin yandırılmasının torpaqlarımızın müdafiəsində gözünü itirmiş qazi İlham Zəkiyevə etibar edilməsi dünyaya bir mesaj oldu.**



# Qarabağda "ildırım sürətli" müharibə hazırlığı

## Rusiya hərbi əməliyyatların ilk 3 saatında gözləmə mövqeyi tutarsa, işğalçı ordu layiqli cavabını ala və ağıllana bilər; Kreml satqınlığa meylli Sərkisyanın "qulağının kəsilməsində" niyə maraqlıdır? Dünya birliyi getdikcə daha yaxşı anlayır ki, Qafqaz kimi vacib bir regionda Azərbaycan özündən qat-qat zəif və zəlil Ermənistana torpaqlarını heç bir halda güzəştə getməyəcək...

**İyunun 25-də Silahlı Qüvvələr günü ilə bağlı hərbi hissənin açılışında çıxış edən dövlət başçısı İlham Əliyev Ermənistan rəhbərliyinə növbəti dəfə sərt bəyanat verdi:** "Bizdə olan məlumata görə, keçən ilin iyul-avqust aylarından bu günə qədər yüzdən çox işğalçı məhv edilib. Bəzi hallarda bizə irad tutulur ki, təmas xəttində gərginlik yaranır, Ermənistan tərəfində çoxsaylı itkilər var. Bizim isə buna cavabımız çox sadədir. Rədd olsunlar bizim torpaqlarımızdan! O zaman münaqişə öz həllini tapar, sülh yarana bilər".

Prezident çıxışında münaqişənin həllinin uzandığını və dünya güclərinin Qarabağ məsələsində tutduğu gözləmə mövqeyini də sərt tənqid edərək "nə Azərbaycan xalqı, nə də Azərbaycan dövləti heç bir başqa varianta razı ola bilməz. Biz ərazi bütövlüyümüzü bərpa etməliyik və edəcəyik" deyib. İ.Əliyev əlavə edib ki, Azərbaycan Ordusunun arsenalında mövcud olan texnika, silah-sursat Dağlıq Qarabağda və Ermənistanda istənilən hədəfi yüksək dəqiqliklə məhv edə bilər. Qeyd edək ki, müdafiə naziri Zakir Həsənov da Avropa Oyunlarından sonra Azərbaycanın Ermənistana gücünü göstərəcəyi ilə bağlı xüsusilə erməni mətbuatında yazılan məlumatlarla bağlı elə həmin gün sensasion bir bəyanat səsləndirib.

**Bəyanatı olduğu kimi təqdim edirik:** "Düşmən Azərbaycan Silahlı Qüvvələrində aparılan islahatları görür. BU YAXINLARDA ONLAR DAHA BÖYÜK İŞLƏRƏ ŞAHİDLİK EDƏCƏKLƏR *(seçdirmə bizimdir)*. Məhz bu istiqamətdə aparılan uğurlu işlər artıq onlarda qorxu yaradır. Ölümü gözləmək ölümün özündən daha dəhşətlidir. Qoy gözləsinlər, biz sözümüzü deyəcəyik. Xatırladım ki, möhtərəm cənab prezident deyib ki, əgər erməni əsgər ölmək istəmirsə, onda onun AĞDAMDA, FÜZULİDƏ *(seçdirmə bizimdir)* nə işi var? Mən onlara məsləhət görərdim ki, bundan yararlansınlar. Yoxsa nəticəsi pis olacaq".

Avropa Oyunlarının davam etdiyi günlərdə Ermənistanda siyasi sabitliyin pozulması, İrəvanda sosial tələblərlə başlayan mitinqlərin əyalətlərə də yayılması, bu etiraz aksiyasına övladları "yad torpaqda" - Qarabağda ölən əsgər analarının da qoşulması düşmən ölkənin hər mənada çöküşünü göstərdi. Həm iqtisadi, həm hərbi gücünü son illər daha da artıran Azərbaycanın miskin bir ölkəyə çevrilmiş Ermənistanla haqq savaşına başlayacağı getdikcə daha real görünür. Əlbəttə, beynəlxalq güclər indi Qafqazda müharibə olmamasına çalışırlar, Rusiya Ermənistanın arxasından çəkilməyib. ATƏT-in Minsk Qrupunun həmsədri Ceyms Uorlik İrəvana son səfərində bildirib ki, əgər Qarabağda genişmiqyaslı müharibə başlayarsa, münaqişəni dinc yolla həll etmək mümkün olmayacaq. Erməni mətbuatı Uorlikin bu bəyanatına xüsusi diqqət çəkərək "artıq ATƏT-in Minsk Qrupunun həmsədrləri səviyyəsində genişmiqyaslı münaqişə barədə bəyanat verilir" - deyə, narahatlıqlarını bildiriblər. Ermənistan mətbuatı yazıb ki, Uorlik İrəvana ona görə gəlib ki, Ermənistan hakimiyyətinə gözlənilən fəlakət barədə xəbərdarlıq etsin.

Ermənistanın müdafiə naziri Seyran Ohanyan da "armenpress"ə müsahibəsində ölkəsinin qorxularını dilə gətirib. O deyib ki, Bakıda keçirilən Avropa Oyunları başa çatdıqdan sonra Qarabağda təmas xəttində vəziyyət kəskin şəkildə gərginləşə bilər. Təkcə həmsədrlər deyil, dünya birliyi də getdikcə daha yaxşı anlayır ki, Qafqaz kimi vacib bir regionda Azərbaycan özündən qat-qat zəif, iqtisadiyyatı bərbad və regionda xeyirsiz bir dövlətə çevrilmiş Ermənistana torpaqlarını heç bir halda güzəştə getməyəcək.

"Qarabağın açarı"na sahib olan Rusiya ilə rəsmi Bakının xüsusən Avropa Oyunlarında nəzərəçarpacaq yaxınlaşması da ermənilərin qorxusunu artırıb. Açılış mərasimində Rusiya prezidenti Vladimir Putinin, bağlanış mərasimində isə Dövlət Dumasının sədri Sergey Narışkinin iştirakı aydındır ki, erməniləri narahat edib.

Ermənistan hakimiyyəti ehtiyat edir ki, ölkədəki gərgin siyasi vəziyyətdən, əhalinin Sərkisyan rejiminin illərdir mənasız müharibə ritorikasından bezdiyi bir vaxtda Azərbaycan Qarabağda hərbi əməliyyatlara başlasın.

Əslində hələ İrəvandakı etiraz aksiyalarından əvvəl Ermənistanda ciddi narahatlıq var idi ki, Azərbaycan Avropa Oyunlarının başa çatmasından sonra Qarabağda hücum əməliyyatlarına başlaya bilər. Ermənistanda bunun sübutu kimi Azərbaycan ordusunun son aylarda dalbadal döyüş şəraitinə maksimum yaxınlaşdırılmış təlimlər keçirdiyini göstərirdilər. Şübhəsiz ki, Azərbaycanın son aylar qardaş Türkiyə ilə intensiv hərbi təlimlər keçirməsi də düşmənin canına qorxu salıb.

Bəzi ekspertlər iddia edir ki, Avropa Oyunlarında öz gücünə bir daha əmin olan Azərbaycan yaxın günlərdə fəal hərbi əməliyyatlara başlaya bilər. "İldırım sürətli" bu əməliyyatlarda ermənilərin hərbi qüvvə yerləşdirməyə canlı qüvvəsi belə çatmayan Ağdam və ya Füzuli istiqamətindəki işğaldakı torpaqlarımızda Azərbaycan bayrağı sancıb danışıqlar prosesində üstünlüyü ələ ala bilər. Mümkündür ki, Azərbaycan ordusu arsenalında olan silah-sursatla cəmi bir neçə saata bu torpaqları azad etsin. Dünya birliyi, xüsusilə həmsədr ölkələr toplaşıb bəyanat verənədək Azərbaycan danışıqlarda status-kvonu birmənalı şəkildə öz xeyrinə dəyişə bilər. Məhz bundan sonra Ermənistan nəhayət ki, tutduğu qeyri-konstruktiv mövqedən çəkilə bilər. Burada yeganə məsələ Azərbaycanın haqq işinə Rusiyanın mövqeyinin necə olacağı sualıdır. Bu yöndə iddialara görə, Rusiya yalnız "ildırım sürətli" müharibənin ilk 3 saatında gözləmə mövqeyi tutarsa, Ermənistan ordusu layiqli cavabını ala və ağıllana bilər.

İndi İrəvandakı aksiyaların arxasındakı oyunlarda Rusiyanın da nə dərəcədə barmağı olduğu maraqla izlənir. Belə ehtimal var ki, Rusiya bugünlərdə Sərkisyana 200 milyon dollarlıq kredit verib silah satmaqla qorxuya düşmüş Ermənistan rəhbərliyini qismən sakitləşdirməyə çalışıb. Amma Kreml Ermənistan rəhbərliyinin satqınlığa meylli olduğundan da xəbərdardır. Sərkisyan iki il əvvəl Avropa Birliyi ilə danışıqlarda Rusiyanın forpostu olan Ermənistanın bu qurumla ciddi əməkdaşlığına tərəfdar idi. Hətta daxili resurslarını işə salaraq İrəvanda anti-Rusiya, anti-Putin aksiyaları təşkil etdirmişdi. Amma Putinin intiqamı ağır oldu və Ermənistan prezidenti Kremlin qarşısında diz çökdürüldü, Avropa Birliyi ilə əməkdaşlığa son qoyuldu, ölkə Avrasiya Birliyinə üzv edildi. Bu mənada Rusiya da indi Ermənistanın qulağının kəsilməsində maraqlı ola bilər və mümkün müharibədə Azərbaycanın irəliləməsi Sərkisyanı birdəfəlik siyasi səhnədən silə bilər....

❑ **"Yeni Müsavat"**

# Bax, sovetin vaxtında...



**Hüseynbala SƏLİMOV**

Hər il qızmar yayın istisindən bizi bir hadisə də ayırır və hətta dərindən düşünməyə vadar edir. Məsələ bundadır ki, orta məktəblərdəki buraxılış və qəbul imtahanları yalnız bilavasitə valideynlərin özlərini maraqlandıran hadisələr deyil...

O insanları ki, cəmiyyətin mövcud durumu, onun içində gedən proseslər və onun perspektivləri maraqlandırır, onlar bu imtahanlara biganə qala bilmirlər.

Bu il də belə oldu. Hələ qəbul imtahanları başlamayıb. Amma buraxılış imtahanları bitib və onların nəticələri artıq bəllidir... Etiraf edim ki, həmin bu nəticələr ildən-ilə daha çox düşünməyə vadar edir. Hər il ilin ən qabaqcıl və ən savadsız regionları müəyyən edilir. İllər ərzində onlar dəyişir və sözün əsl, həm yaxşı, həm də pis mənasında estafeti bir-birinə ötürürlər...

Hamını da daha çox uğursuzluqlar, mənfi hallar qayğılandırır. Dərhal belə təsəvvür yaranır ki, cəmiyyət savadsızlaşmağa doğru gedir...

Adətən təhsili keçmiş sovetlər vaxtındakı ilə müqayisə edirlər. Bu da təbiidir, çünki bu, bizim yaxın keçmişimizlə bağlıdır...

Amma mən sovetlərin dövründə təhsil almış bir adam kimi deyirəm ki, vəziyyət heç də düşünülən qədər də ağır deyil. Sovetlərin dövründə bir sinifdə azı 30 şagird olardı. Bəzən bundan da artıq ola bilirdi. Adətən bir sinifdə 5-6 nəfər şagird sözün əsl mənasında çalışırdı. Qalanları ya onları istismar edir, ya da müəllimlərin yazdığı "tramvay altında qalmış üç"lə kifayətlənməli olurdular...

Əgər o vaxt da indiki kimi ciddi imtahan keçirilsəydi onda ən azı şagirdlərin 90-95 faizi bu imtahanlardan qeyri-kafi qiymət alardı. O dövrdə şagirdlərə kafi qiyməti ona görə yazırdılar ki, sinifdə qalanlar olmasın, çünki bu, həm məktəbin imicinə xələl gətirirdi, həm də dövlətə lazım deyildi. Elə ona görə də sadəcə, yola verirdilər...

İndi imtahanlar çox ciddi keçir. Və təbii ki, onlar əsl mənzərini üzə çıxarırlar.

Ona görə də nə varsa, o da var... Biri var, özünü aldadasan, biri də var ki, heç olmasa, həqiqəti biləsən...

Sovet təhsil sistemini də çox şişirdirlər. Təsəvvür edin, sovetlərin bütün tarixi ərzində bircə nəfər belə olsun azərbaycanlı şagird beynəlxalq olimpiada qalibi olmamışdı. Amma indi baxın. Neçə belə şagird olub!..

Üstəlik, proqramlar da elə sovet dövründə olduğu kimi qalıb. Mən bunu elə də müsbət hal saymıram. Sovetlərin son çağlarında belə bir hadisə olmuşdu. Bəli, bir amerikalı mütəxəssis riyaziyyat dərsliyini vərəqləyəndən sonra demişdi ki, sizə iqtisadi islahatları aparmaq çox çətin olacaq...

Sovetlər şagirdləri yükləməyi sevirdilər. Hətta o vaxt adam düşünürdü ki, əgər bir mövzu ali məktəblərdə daha ətraflı və dərin keçiriləcəksə onu orta məktəbdə zorla şagirdlərin beyninə "doldurmağ"a nə ehtiyac var?..

İndi də sovet dövrünün proqramlarına elə də ciddi dəyişikliklər etməyiblər. Bu dünya təhsil təcrübəsi nöqteyi-nəzərindən nə qədər məqsədəuyğundur, təəssüf ki, deyə bilmərəm...

Sovet təhsil sisteminin başqa üstünlükləri vardı. Dəqiq elmlərin nümayəndəsi kimi deyə bilərəm ki, indi şagirdlərə formul əzbərlətdiririlər. Təbii ki, məktəblərdə hər şey ətraflı tədris edilir. Amma etiraf edək ki, son iki təhsil və tədris ilində şagirdlər əsas biliyi repetitorlardan və hazırlıq kurslarından alırlar. Onlar isə şagirdlərə sadəcə, formulları və qaydaları verirlər. Nəticədə də şagirdlər demək olar ki, həmin formulların haradan alındığını bilmir və bu, da müəyyən vaxtdan sonra mexaniki bilik kimi tamam unudulur...

Ümumi halda götürdükdə isə, sovet təhsil sisteminin başqa üstünlüyü yox idi. Hələ mən ictimai fənlərin yükünü, təhsilin ideologiyalaşdırılmasını demirəm.

Təsəvvür edin, o vaxt ali məktəblərdə dövlət imtahanı kimi elmi kommunizmdən imtahan verirdilər. Bu, ümumiyyətlə, absurd idi. Amma nə etmək olar? Sovet gerçəkliyi belə absurdlarla zəngin idi və o vaxt belə hesab edilirdi ki, cəmiyyətə və dövlətə birinci növbədə kommunizm qurucusu lazımdır. Elə ona görə də o quruluş çox dözə bilmədi, çünki Nobel mükafatını kommunizm qurucusuna deyil, elmi kəşflərə görə verirdilər. Mühəndisdən də dünyada partiya tarixini bilmək deyil, yeni-yeni ixtiralar tələb olunurdu...

Amma sovet gerçəkliyi bunu nəzərə almırdı. Demirəm ki, indiki təhsil tamam qüsursuzdur. Yox, qüsurlar çoxdur. O, hələ tam oturuşmayıb, tam formalaşmayıb. Fəqət, otrub-durub elə "Bax, sovetin vaxtında..." deməyin də mənası yoxdur, çünki o vaxtları da görmüşük...

YENİ MÜSAVAT
N 141 (6169) 1 iyul 2015




# Hakimiyyət Qərb mediası ilə anlaşa bilərmi?

## Mehman Əliyevin fikrincə, bu, mümkün deyil

**Azərbaycan hakimiyyəti zaman-zaman Qərb mətbuatının hədəfinə çevrilir. Yüksək tirajlı, reytinqli media orqanları Azərbaycandakı söz azadlığı, demokratiya problemləri, eləcə də korrupsiya faktlarını tirajlayır. Bu fakt isə Azərbaycan hakimiyyəti, onun mediası tərəfindən qıcıqla qarşılanır. Hökumət mediası səviyyəsində verilən cavablar, hazırlanan reportajları nəzərə alanda məlum olur ki, məqalələr iqtidar dairələrində ciddi narazılıq yaradır.**

Maraqlıdır, hakimiyyət niyə Qərb mediası ilə anlaşmaq, bu və digər üsullarla hücumları zərərsizləşdirə bilmir?

İlkin rəylər bundan ibarətdir ki, bu məsələdə Qərb mətbuatının inzibati və maliyyə baxımından heç kəsdən asılı olmaması önəmli rol oynayır. Azərbaycan mediasından fərqli olaraq Qərb mətbuatının yaşamaq, reklam azlığı, satış... kimi problemləri yoxdur. Unutmayaq ki, hakimiyyətin Qərbdəki bəzi lobbi qrupları KİV-lərdə Azərbaycan haqqında bir neçə müsbət məzmunlu materiallar yerləşdirir. Amma bu, reklam əsasları ilə olur və Qərb cəmiyyətlərində belə materiallar ciddi qarşılanmır, ölkə barədə müsbət təəssürat yaratmağa kifayət etmir.

Buna səbəb isə Qərbdə hətta hakimiyyətlərin belə, mətbuatla hesablaşmasıdır. Bu cür demokratik ölkələrdə mətbuat "dördüncü hakimiyyət" kimi çox ciddi təsir gücünə sahibdir. Ona görə də belə ölkələrdə mətbuatla anlaşma qətiyyən mümkün deyil.

**Ekspert Ələsgər Məmmədli daha öncə sözügedən mövzu ilə bağlı "Yeni Müsavat"a bildirib ki, Qərb mətbuatının hər hansı siyasi qüvvənin iradəsinə boyun əyməməsi burada ən əhəmiyyətli faktordur:** "Demokratik dövlətlərdə hətta həmin ölkələrin hakimiyyətləri belə, mətbuata təsir göstərə bilmir. Belə ölkələrin mətbuatı heç vaxt siyasi hakimiyyətlərin iradəsi ilə hərəkət etmir. Qərb dövlətlərində mətbuat orqanlarının dəstəyini qazanmaq üçün ilk növbədə haqlı və ədalətli olmaq lazımdır. Və həmin ölkələrdə mətbuat göstəriş əsasında olan deyil, məhz özünün əhəmiyyətli hesab etdiyi məqamları işıqlandırır".


Mehman Əliyev

**"Turan" İnformasiya Agentliyinin direktoru Mehman Əliyev hesab edir ki, xarici mətbuatı ümumiyyətlə ələ almaq mümkün deyil. Onun sözlərinə görə, Qərb qəzetlərində və ya kanallarında sifarişli, reklam xarakterli materiallar, məqalələr yayımlana bilər:** "Bunu da hökumət dəfələrlə edib. Məsələn, CNN-də Azərbaycanın təbliğatı ilə bağlı bir veriliş yayımlanır, sonra hakimiyyət onu yayır. Amma o veriliş yayımlananda da həmin kanalda qeyd edilir ki, bu, reklam xarakterlidir. Həmin kanalın, qəzetin redaksiyasında Azərbaycanla bağlı yazı yazmaq istəsələr də, bunu edəcəklər. Azad media həm də onunla fərqlənir ki, onun oxucusu var və onu itirmək istəmir. Avtoritar rejimin sifarişi ilə yazı yazsa, reklamı da, tirajı da, oxucusu da azalar".

**Müsahibimizin sözlərinə görə, Qərb mətbuatı bu məsələlərə ciddi yanaşır. Oxucunun tələbatını, səviyyəsini ölçərək işləyən media üçün belə məsələlər yolverilməzdir:** "Gerçək media nüfuzunu qoruyur, onu müdafiə edir. Media əqidəsini bir-iki dəfə satsa, sabah oxucu ondan üz döndərəcək. Onun Mətbuat Şurası da, məhkəməsi də ictimaiyyətdir. Belə yazılara, məqalələrə görə sabah nüfuzunu itirsə, heç Azərbaycan hakimiyyəti üçün də lazım olmayacaq".

**M.Əliyev xatırlatdı ki, ona da zaman-zaman dövlət tədbirlərində "obyektiv ol, gerçəyi yaz" adı altında hakimiyyətin mənafeyini müdafiə edən mətbuat siyasəti yürütmək məsləhət görülür. Müsahibimizin sözlərinə görə, bu cür siyasət isə oxucu, abunəçi itkisi deməkdir:** "Bəzi səfirliklər, şirkətlər var ki, məhz bizim bülletenləri alırlar. Adlarını çəkmək istəmədiyim agentliklərin bülletenini almırlar. Çünki onların obyektiv olmadıqlarını bilirlər. Təsəvvür edin ki, biz də həmin agentliklər kimi fəaliyyət göstərdik. O zaman nə olacaq? Biz o abunəçiləri, oxucuları itirəcəyik." **"Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov isə hesab edir ki, dünyada anti-Azərbaycan şəbəkəsi var və onlar daim Azərbaycan haqqında şər-böhtan xarakterli məlumatlar verir:** "Onlar çalışırlar ki, Azərbaycanın beynəlxalq nüfuzuna xələl gətirsinlər. Yalandan Azərbaycanda korrupsiyanın tüğyan etdiyi barədə məlumatlar verirlər. Onlar dünya ermənilərı tərəfindən maliyyələşdirilib istiqamətləndirilən qurumlardır. Bəzən isə Azərbaycana hər hansı təzyiq etmək məqsədilə hansısa bir beynəlxalq qurumun açıqlamalarını görmək mümkündür. Bunların mətbuatda görünməsi isə təəccüblü və qeyri-adi deyil".

**Baş redaktor "Yeni Müsavat"a müsahibəsində bildirmişdi ki, Amerikanın qəzetləri, Amerikanın maliyyəsi ilə yaşayan qurumlar var:** ""Amnesty İnternational", "Human Rights Votch" bizi tənqid edəndə olur, biz onları tənqid edəndə olmur? Bu hüququ bizdən kim alıb? "Vaşinqton Post" məqalə yazmır? Mən də yazıram da. Əskik yazıram? Gəl görək, onların yazdığı obyektivdir, həqiqətə yaxındır, yoxsa bizimki?"

❑ **Sevinc TELMANQIZI**

# Misirdə "Qardaşlar"ın qanlı qisası

## Mursiyə ittiham irəli sürən Misirin baş prokuroru evinin qarşısında öldürüldü, ölkə getdikcə terror girdabına yuvarlanır



**Misirdə baş vermiş terror aktı ölkədə şok yaradıb. İyunun 29-da Misirin baş prokuroru Hişam Bərəkət Qahirədə evindən çıxıb işə gedərkən terrora məruz qalıb. Minalanmış avtomobil baş prokuroru müşayiət edən avtomobillərdən birinə çırpılıb. Nəticədə Bərəkət özü və daha 9 nəfər ağır yaralanıb, xəstəxanaya çatdırılan baş prokurorun həyatını xilas etmək mümkün olmayıb.**

Terror hücumunun məsuliyyətini bu günə qədər adı məlum olmayan Giza Xalq Müqaviməti qruplaşması *(Giza Qahirənin qədim rayonudur)* öz üzərinə götürüb. Ancaq terror hücumunun 30 iyun tədbirlərindən bir gün əvvəl törədilməsi, hədəfin isə "Müsəlman Qardaşlar" Hərəkatı fəallarına, xüsusən də devrilmiş prezident Məhəmməd Mursiyə qarşı sərt münasibəti ilə tanınan baş prokuror Hişam Bərəkət olması bunun bir qisas aktı olduğunu göstərir.

Yeri gəlmişkən, bu ilin əvvəlində Baş Prokurorluğun binasına hücum olub və iki nəfər öldürülüb. Bundan başqa, iki ay əvvəl Mursi tərəfdarlarına hökm çıxardığı iddia edilən 3 məhkəmə hakimi də Sina yarımadasında terror hücumuna məruz qalaraq öldürülüb. Terror aksiyasından sonra hökumət qüvvələri gücləndirilmiş iş rejiminə keçib. Təhlükəsizlik qüvvələri və polis döyüş hazırlığı vəziyyətinə gətirilib. Bundan başqa, məhkəmə binaları, o cümlədən "Müsəlman Qardaşları" hərəkatı üzvlərinin mühakiməsində iştirak etmiş hakimlərin evləri xüsusi nəzarətə götürülüb.

Baş prokuror Bərəkətin ölümü ilə bağlı Misirdə matəm elan olunub, 30 iyun hadisələri ilə bağlı planlaşdırılmış bayram tədbirləri ləğv olunub. Xatırladaq ki, 2013-cü il iyunun 30-da başlayan kütləvi etiraz aksiyalarından sonra ordu hərəkətə keçərək hərbi çevriliş edib və Misir prezidenti Məhəmməd Mursi həbs olunub. Bununla da inqilabdan sonra formalaşmış Misir hakimiyyəti devrilib və ordunun nəzarətində müvəqqəti hökumət qurulub. Daha sonra hakimiyyətə gələn keçmiş müdafiə naziri və baş qərargah rəisi Əbdülfəttah Sisi 2014-cü ilin mayında prezident seçilib. Paralel olaraq çevrilişə etiraz edən "Müsəlman Qardaşları" fəalları həbs olunub, onların bir çoxu, o cümlədən keçmiş prezident Məhəmməd Mursi və hərəkatın liderləri barədə ölüm hökmü çıxarılıb.

Qeyd edək ki, Misirdə "Müsəlman Qardaşları" Hərəkatının hakimiyyətinin devrilməsindən sonra ölkədə radikalizm meylləri artıb. Hərəkatın radikal qanadının üzvləri hökumət qüvvələrinə hücumlar təşkil edir. Xüsusən də ölkənin "turizm paytaxtı" və enerji resurslarının cəmləşdiyi Sina yarımadasında radikal dinçi qruplar, silahlı bədəvi tayfaları hökumət qüvvələri fəaldır. Yarımadada fəaliyyət göstərən "Ənsar Beyt əl-Makdis" qruplaşması ötən ilin payızında İŞİD-ə biyət etdiyini elan edib və terror təşkilatının Misirdəki təmsilçiliyini həyat keçirdiyini bəyan edib. Misir ordusu və polis qüvvələrinə bir neçə dəfə hücumlar edən qruplaşma çoxlu sayda hərçi və polis öldürüb.

Radikal terrorçu qrupların məhz Sina yarımadasını hədəfə alması təsadüfi deyil. Tunis kimi Misirdə də turizm ölkənin əsas gəlir sahələrindən biridir. Misirin əsas turizm bölgələri isə Sina yarımadasında, Qırmızı dəniz sahillərində yerləşir. Terrorçular məhz bu bölgələri hədəfə almaqla ölkə iqtisadiyyatını zəiflətmək, eyni zamanda "kafirləri qovmaq" missiyasını həyata keçirirlər. Yeri gəlmişkən, bir qədər əvvəl Misirin Luksor turizm şəhərciyində Karnak məbədi yaxınlığında terrorçular minalanmış avtomobili turist avtobusu yaxınlığında partladıblar. Luksor Misirin cənubunda yerləşir və qədim tarixə malik bölgədir.

Xatırladaq ki, ötən həftənin cümə günü İŞİD üzvü terrorçu Tunisin Aralıq dənizi sahillərində yerləşən Susa turizm şəhərciyinə hücum edərək əsasən turistlər olmaqla, 40 nəfəri öldürüb. Hazırda Misir hakimiyyəti radikal qruplaşmaların əsas hədəflərindən biri olduğu üçün bu ölkədə yaxın zamanlarda yeni terror hücumlarının baş verməsi gözlənilir.

❑ **Kənan RÖVŞƏNOĞLU**

# Rəsmi Bakıdan terror bəyanatı



**Azərbaycan Xarici İşlər Nazirliyi Misir Ərəb Respublikasının baş prokuroru Hişam Bərəkata qarşı 29 iyun tarixində təşkil olunmuş terror aktını qəti şəkildə pisləyib.**

Virtualaz.org-un məlumatına görə, bu barədə Azərbaycan XİN-in bəyanatında bildirilib.

Bəyanatda deyilir ki, terrorizmdən əziyyət çəkən dövlət kimi Azərbaycan Respublikası terrorizmin bütün forma və təzahürlərini qəti şəkildə qınayır: "Terrorizmə qarşı mübarizədə Misir xalqı və hökuməti ilə həmrəyliyimizi ifadə edirik. Terror aktı nəticəsində həlak olmuş Hişam Bərəkatın ailə üzvlərinə və yaxınlarına dərin hüznlə başsağlığı veririk".

YENİ MÜSAVAT
N 141 (6169) 1 iyul 2015

# Parlament seçkilərinə 4 ay qaldı

**2015-ci ilin ilk yarısı geridə qaldı. Sözsüz ki, ilin ilk 6 ayında ölkə insanı daha çox rəsmi Bakının ev sahibliyi ilə keçirilən Avropa Oyunlarına köklənmişdi və 17 günlük həyəcanlı günlər tarixə qovuşdu.**




Cari ilin ikinci yarısında isə Azərbaycan ölkə həyatının əsas siyasi hadisəsi ilə baş-başa qalacaq ki, bu da noyabrın 1-də keçiriləcək parlament seçkiləridir. Lakin seçkilərin necə keçəcəyi, hansı qüvvələri əhatə edəcəyi, seçici aktivliyinin olub-olmayacağı indidən danışılır. Üstəlik, Avropa Oyunlarında Azərbaycan hakimiyyəti ilə münasibətlərində konfrantasiya mühiti yaşanan Avropa qurumlarının parlament seçkilərinə necə yanaşacağı da gündəmin əsas suallarındandır.

Azərbaycanla bağlı sərt qətnamə qəbul edən AŞ PA-nın seçkilərə müşahidəçilərini göndərəcəyini əvvəlcədən açıqlaması da müəyyən təxminlərə əsas verir. Siyasi partiyalar üçün isə artıq seçki prosesi başlanmış sayılır.

**Müsavat Partiyası başqanının müavini Elman Fəttah növbəti yarımilin əsas hadisəsinin seçkilər olacağını düşünür:** "Avropa Şurasının Azərbaycanla bağlı son qətnaməsində də ölkədə seçki mühitinin olmaması və hakimiyyətin siyasi iradəsinin ölkədə ədalətli seçki yarışının keçirilməməsinə hesablandığı öz əksini tapıb. Hesab edirəm ki, bu, Azərbaycanda seçkiöncəsi vəziyyəti obyektiv əks etdirən qənaətdir. Bütün ağır şərtlərə baxmayaraq, Müsavat Partiyası seçkilərə ciddi şəkildə hazırlaşır. Çalışırıq ki, ilk növbədə əhalinin seçkiyə olan inamsızlığının aradan qaldırılması yönündə işlər görək. Digər tərəfdən isə bu seçkilərdə ciddi fəaliyyət göstərməklə iqtidarın seçkiləri hər zaman olduğu kimi yenə də öz xeyrinə saxtalaşdırmaq arzusunu gözündə qoyaq".

**E.Fəttah əlavə etdi ki, hakimiyyətin bütün fəaliyyəti seçici fəallığının və real seçki mübarizəsinin olmamasına hesablanıb:** "Bu məqsədə nail olmaq üçün parlament seçkilərində prinsipial beynəlxalq müşahidə missiyalarını dəvət etməkdən də imtina edib. Biz isə istəyirik ki, bu çətin vəziyyəti dəyişək. Real seçki mübarizəsi üçün şəraitin olacağına ümid yoxdur. Ancaq biz yenə də prinsipial mübarizəmizi davam etdirəcəyik. O cümlədən də seçkilərdə iştirak edərək hakimiyyətin saxtakarlıq planlarını pozmağa çalışacağıq".

**Ümid Partiyası sədrinin 1-ci müavini Ənvər Ağazadə qeyd etdi ki, Azərbaycanda 2015-ci ilin ən mühüm siyasi hadisəsi parlament seçkiləri olmalı idi:** "Amma Avropa Oyunları seçkiləri ikinci plana keçirdi. İlin düz yarısı bütün dövlət strukturları, ölkə ictimaiyyəti Avropa Oyunları ilə məşğul oldu. Çox böyük hazırlıq işləri görüldü, hökumət tərəfindən ciddi diqqət ayrıldı".



**Elman Fəttah:** "Seçkilərdə iştirak edərək hakimiyyətin saxtakarlıq planlarını pozmağa çalışacağıq"



**Ənvər Ağazadə:** "Parlament seçkilərində əvvəlki illərdən fərqli olaraq müsbət irəliləyişlər müşahidə olunacaq"



**Fəzail Ağamalı:** "Anti-Azərbaycan qüvvələri təbii ki, parlament seçkilərində sakit durmayacaqlar"

**Ə.Ağazadə bildirdi ki, Avropa Oyunlarının Bakıda keçirilməsi ölkəmizi dünyada tanıtmaqla yanaşı, onun problemlərini də gündəmə gətirdi:** "Siyasi məhbus, insan haqları, müstəqil, ədalətli məhkəmə sistemi və azad seçki. Bir daha aydın oldu ki, bu problemləri həll etmədən ölkəmizdə keçiriləcək hər hansı beynəlxalq tədbir təbliğdən çox, tənqid hədəfinə çevirəcək. Bu baxımdan düşünürəm ki, parlament seçkilərində əvvəlki illərdən fərqli olaraq müsbət irəliləyişlər müşahidə olunacaq. Xüsusilə parlamentin tərkibi, siması az da olsa, müsbətə doğru dəyişəcək. Bizim arzuladığımız demokratik və ədalətli seçki üçün isə xalq, cəmiyyət olaraq çox çalışmalıyıq. Problemlər isə həddindən artıq böyükdür".

**AVP sədri, deputat Fəzail Ağamalı isə bildirdi ki, 2015-ci ilin əsas idman hadisəsi 17 günlük Avropa Oyunlarıdır:** "Azərbaycanın tanınmasında, dövlət kimi gücünün nümayişində, qədim xalq kimi zəngin mədəniyyətimizin, üstün dəyərlərimizin dünyaya təqdim olunmasında bu 17 gün çox ciddi rol oynadı. Bu, ilin 1 saylı hadisəsidir. Keçirilən idman oyunları həm dünya, həm də ölkə miqyasında bir test idi, bu testdən Azərbaycan dövləti böyük uğurla çıxdı".

**Bununla belə, F.Ağamalı parlament seçkilərini ciddi siyasi hadisə kimi xarakterizə etdi. Əlavə etdi ki, avqustdan sonra bütün gündəmi parlament seçkiləri tutacaq:** "Parlament seçkilərinin düşüncələrdə, ayrı-ayrı partiyaların ümumi fəaliyyətində ciddi yer tutduğu hər kəsə bəllidir. Bununla bağlı da, əlbəttə, ilkin hazırlıqlar mövcuddur, ilkin araşdırmalar ortadadır. Növbəti aydan etibarən isə istər siyasi partiyalar, istər ayrı-ayrı şəxslər namizədliklə bağlı konkret addımlar atacaq. Təcrübə göstərir ki, Azərbaycanda parlament seçkiləri hər zaman ciddi siyasi fəallıqla müşayiət olunub. Güman edirəm ki, bu seçkilər də özünün siyasi fəallığı ilə xüsusi olaraq fərqlənəcək. Kimin daha çox namizəd irəli sürməsi, parlamentdə daha çox hansı qüvvələrin təmsil olunması, iddiaçılardan kimin udacağı, yaxud uduzacağı zamanın işidir və seçicilərin iradəsindən asılıdır. Ancaq artıq cəmiyyətimizdə və siyasi partiyalarda qarşıdan gələn parlament seçkilərinə demək olar ki, start verilib". **AVP sədri parlamentin tərkibinin daim yeniləndiyini deyərək, növbəti seçkidə də bunu istisna etmədi:** "Lakin kimlərin gedəcəyi, qalacağı, hansı qüvvələrin mandat qazanacağı haqqında gümanlar söyləmək o qədər də ciddi söhbət deyil. Proqnoz vermək yerinə düşmür. Bütün bunlar haqqında sentyabr ayında daha dəqiq rəy söyləmək olar".

**Hətta idman yarışına, Avropa Oyunlarına münasibətdə kifayət qədər sərt mövqe sərgiləyən Qərb dairələrinin Azərbaycandakı siyasi hadisəyə münasibətinin necə olacağına gəldikdə, F.Ağamalı bunları bildirdi:** "Nəzərə almalıyıq ki, idman siyasətdən tamamilə uzaqdır və idman dünyada sülhün, dostluğun rəmzi kimi qəbul olunur. Ancaq anti-Azərbaycan qüvvələr hətta idman yarışına qarşı fəaliyyət göstərdilərsə, onun baş tutmaması üçün bütün imkanlarından istifadə etdilərsə, növbəti addımlar da gözləniləndir. Təbii ki, dinləmələr keçirilsə də, qətnamələr qəbul olunsa da, ayrı-ayrı ölkələrə çağırışlar edilsə də, heç nə alınmadı, yarışlar yüksək səviyyədə baş tutdu və Azərbaycan olimpiya hərəkatına çox böyük töhfələr verdi. Bununla belə, idman yarışına qarşı mövqe ortaya qoyan anti-Azərbaycan qüvvələr təbii ki, parlament seçkilərində sakit durmayacaqlar. Yenə də parlament seçkiləri ərəfəsində bu və ya digər dinləmələr olacaq, ayrı-ayrı QHT-lər hərəkətə keçəcək, insan haqları, mətbuat azadlığı ilə bağlı palaz-palaz yazılar dərc etdirəcəklər, hesabatlarında bütün bunları önə çəkəcəklər. Eyni zamanda Azərbaycana artıq hazır bəyanatları portfellərində gətirən müşahidəçilər də olacaq ki, seçki bitən kimi həmin hazır bəyanatı çıxarıb bəyan edəcəklər ki, "Azərbaycandakı seçkilər beynəlxalq standartlara cavab vermədi" və s. Bununla bərabər, mən əminəm ki, seçkilər xalqın iradəsini ifadə edəcək, azad, demokratik keçiriləcək. Ümidvaram ki, parlament seçkilərinin demokratik şəkildə, xalqın yüksək əhval-ruhiyyəsi ortada olmaqla keçirilməsini ölkə prezidentinin iradəsi təmin edəcək".

❑ **Cavid TURAN**

---

## Siyavuş Novruzovdan 10 min manat açıqlaması

### "Bu addım parlament seçkiləri öncəsi siyasi xal qazanmaq üçün atılan addımdır"

**Hakim Yeni Azərbaycan Partiyasının icra katibinin müavini, deputat Siyavuş Novruzov Müsavat başqanı Arif Hacılının 10 min manatadək olan kredit borclarının dövlət tərəfindən ləğv edilməsi barədə təklifinə reaksiya verib.**



Siyavuş Novruzov

YAP rəsmisi azvision.az-a açıqlamasında bildirib ki, A. Hacılı bu addımı ilə qarşıdan gələn parlament seçkiləri öncəsi özünə siyasi divident qazanmaq istəyir və oyun oynayır.

S.Novruzov qeyd edib ki, Müsavat Partiyasında legitimlik yoxdur: "Ona görə də hər vəchlə həm xaricdə, həm də daxildə özlərinə hər hansı bir ad qazanmaq istəyirlər. Bu baxımdan I Avropa Oyunlarını boykot etməklə bağlı qərar çıxardılar. Təbii ki, bununla hansısa xarici dairələrin diqqətini özlərinə cəlb etmək istəyirdilər. Müsavat Partiyasında heç kim qalmayıb. Əsas fiqurlar partiyadan uzaqlaşıb. Yerdə qalan 3-5 nəfər isə partiyanı özlərinə müəssisə, gəlir mənbəyi kimi istifadə edirlər".

**Arif Hacılının on min manatadək olan kredit borclarının dövlət tərəfindən ləğv edilməsi barədə təklifinə gəlincə, S.Novruzov qeyd edib ki, bu addım parlament seçkiləri öncəsi siyasi xal qazanmaq üçün atılan addımdır:** "İndi guya o, xalqın dərdini çəkir? Əsla. Xalqdan dəstək qazanaq üçün süni şəkildə yalan məlumatlar əsasında hər bir məsələyə özlərini qatmaq istəyirlər. Amma bunun mənası yoxdur. Çünki Azərbaycan cəmiyyəti onları tanıyır".

---

## 13 saylı həbsxana ilə bağlı yayılan xəbərlərə reaksiya gəldi

### Anar Cəbrayıl: "Yayılan xəbərlər doğru deyil"

**13 saylı cəzaçəkmə müəssisəsində məhbuslara içməli suyun verilməməsi ilə bağlı məlumat vermişdik. Bu barədə mətbuata məhbusların yaxınları məlumat veriblər. Onlar baş verən bu halı isti yay günlərində məhbuslara verilən işgəncə halları kimi qiymətləndiriblər.**



Anar Cəbrayıl

Hazırda həmin cəzaçəkmə müəssisəsində cəza çəkən Müsavat başqanının müavini Tofiq Yaqublunun qızı da yayılan xəbərləri təsdiqləmişdi. Tofiq Yaqublu ailəsi ilə telefon danışığı zamanı məlumat vermişdi.

"Azərsu" ASC-nin mətbuat xidmətinin rəhbəri Anar Cəbrayıl "Yeni Müsavat"a açıqlamasında yayılan xəbərin həqiqəti əks etdirmədiyini söylədi: "Belə bir problem yoxdur. Araşdırma apardıq. Mənə məlumat verildi ki, o ərazidə elə bir problem yaşanmır. Yayılan xəbərlər doğru deyil. Su həmin əraziyə vaxtında verilir və istifadə olunur. Ora su Kür-Bakı xəttindən gedir".

Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin də mövqeyini öyrənməyə çalışsaq da, mümkün olmadı. Zənglərimizə cavab verən tapılmadı.

Qeyd edək ki, 13 cəzaçəkmə müəssisəsində tanınmış siyasi məhbuslar Anar Məmmədli, Tofiq Yaqublu, Pərviz Həşimli, Əli İnsanov və İlkin Rüstəmzadə cəza çəkirlər.

❑ **Cavanşir ABBASLI**

---

## Belarusda prezident seçkisinin vaxtı məlum oldu

**Belarusda prezident seçkiləri bu il oktyabrın 11-də keçiriləcək. Modern.az-ın xarici KİV-ə istinadən verdiyi xəbərə görə, bu qərarı Belarus Milli Məclisinin Nümayəndələr Palatası qəbul edib.**

Belarus Konstitusiyasına əsasən prezident seçkiləri 5 il müddətinə seçilir. Prezident Belarusda doğulan və yaşı 35-dən az olmayan vətəndaş seçilə bilər. Məhkumluq həyatı yaşayan vətəndaş prezidentliyə namizəd ola bilməz.

Liberal-Demokrat Partiyasının sədri Sergey Qaydukeviç, Birləşmiş Vətəndaş Partiyasının sədri Anatoli Lebedko, Belarus Sosial-Demokrat Partiyasının üzvü Tatyana Korotkeviç, solçu "Ədalətli dünya" partiyasının rəhbəri Sergey Kalyaqin prezidentliyə namizəd olacaqlarını əvvəlcədən elan ediblər. Bundan başqa, indiki dövlət başçısı Aleksandr Lukaşenko da yenidən namizəd olacaq.



# Əlli dərəcə şaxtanın tüfəngi

Zamin HACI
zaminhaci@gmail.com

**"Üzr istəyirəm, - Şveyk dedi, - Mən siz cənablara bir sual vermək istərdim. On dörd qatlı ev var, hər qatda səkkiz pəncərə var, damda iki kiçik pəncərə və iki baca borusu, həmçinin hər qatda da iki kirayəçi vardır. İndi isə cənablar, mənə deyin görüm, qapıçının nənəsi neçənci ildə ölmüşdür?"**

*(Yaroslav Qaşek, "İgid əsgər Şveykin macəraları")*

Dünən antierməni vətənpərvərliyimiz və meyvələrin erməni elan olunması mövzusuna bir qədər toxunmuşdum, söz verdiyim kimi, mövzunu davam etdirirəm.

Sevindirici haldır ki, bizim ölkədə özünü iqtidar adlandıran hissə ilə özünü müxalifət adlandıran hissənin ortaq nöqtələrindən biri erməni məsələsidir. O tərəf vaxtaşırı bu tərəfə erməni deyir, bu tərəf də o tərəfə. Fikrimcə, bu işdə bir az savadlı olmalıyıq. Dağlıq Qarabağda, həmçinin başqa yerlərdə yaşayan nə qədər erməni vətəndaşımız vardır. Biz onları niyə təhqir edirik? Bəyəm Dağlıq Qarabağ ermənilərinə yüksək səviyyədə muxtariyyət, Azərbaycan bayrağı altında dinc yaşayış vəd edən biz deyilik? Bütün azərbaycanlılar işğal qurbanı olmadığı kimi, bütün ermənilər də işğalçı deyil. Biz bu eyniləşdirmə, ümumiləşdirmə cəhdlərindən qurtulmalıyıq. Hələ konstitusiyamızda yazılan "milli ayrı-seçkiliq qoymuruq" maddəsini demirəm. Ya onu silin, ya da boş-boş danışıb ürəyimizi bulandırmayın.

Mən bu məsələdə müxalifət-iqtidar birliyini havadan yazmıram. Yazda bir erməni əsgər sülhə atıb biz tərəfə keçmişdi. Müxalifət qəzetlərindən biri yazmışdı ki, bu erməni əsirə nə üçün qayğı göstərilir. Həmin əsir əsgərə yemək, paltar, sığınacaq verilməsi hətta mitinqdə iqtidar əleyhinə şüar kimi, plakat şəklində qaldırılmışdı. Məncə, bu yalançı urapatriotizm hərəkətləri iqtidarın dəyirmanına su tökməkdən başqa bir şey deyil. Necə ki, iqtidarın da bu hap-gop erməni nifrəti oyunlar zamanı dağılıb getmişdi.

Srağagün telekanalizasiyalar işğal edilən ərazilərimizdən bu mövzuda növbəti tragikomik xəbəri yayırdılar. Sən demə, ermənilər işğal edilən ərazilərimizi yandırırmış. Bunu bizim "Azərsat" peyki də qeydə almışdır. Xəritə şəklini ekranda verirdilər, multfilm kimi bir xəritə idi, orda hansı otluğumuzun yanması-filan təsvir edilmişdi. Sanki düşmən işğal elədiyi ərazidə otlaqları suvarmalı imiş. Ağacların dibini belləməliymiş ki, Zakir Həsənov gəlib gilas yığsın, tut çırpsın, nə bilim, yay armudu yesin.

Özlərini inkar eləyirlər eyni zamanda. Çünki ermənilər işğal edilən ərazidə hansısa tikinti, quruculuq işləri aparanda da bizim yapist vətənşüvənlər "bax, niyə orda ev tikirsiniz, ora bizimdir" deyirlər. Yandıranda da deyir niyə yandırırsan. Sənin ərazini işğal ediblər - daha bundan artıq nə eləsinlər? Düşmənçiliyi başa salmağın ayrı üsulu da varmı? 1993-cü ildə bu işğal üstündə hakimiyyətə gəlib 22 ildir kresloda oturanlara niyə sual vermirsiniz ki, bəs Qarabağın azadlığı proqramınız hanı? 22 ildə torpağa peykdən baxmağı bacarıblar. Dəhşət uğurdur. 22 il də hakimiyyətdə qalsınlar, yanğın tüstüsünün tərkibində qanqal və başqa otların faiz nisbətini müəyyən edərlər.

Hansı sahəyə baxsan beləcə uydurmalarla dövran sürürlər. Srağagün Müdafiə Nazirliyinin saytında qadın snayper əsgərlərimizlə intervülər yerləşdirilmişdi. Onlar deyirdilər ki, SVD və OSV-96 snayper tüfəngləri ilə təlim keçiblər, silahları bunlardır. Oxucuların nəzərinə: bu hər iki snayper tüfəngi Rusiya istehsalıdır, Rusiya markasıdır. Bəs Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin bir neçə ildir dil-boğaza qoymadan haqqında qırıldatdığı "İstiqlal" və "Mübariz" snayperlərindən niyə yararlanmırlar? Bəlkə "İstiqlal" 20 kilodur, lüləsi isə 2 metrdən uzundur və bu kiçik topa bənzər əcaib silahla hardasa gizlənib düşmən vurmaq çətin olduğu üçün? O zaman niyə gopa basırsınız? Nazir Yavər Camalov bizə izah eləsin görək onun qayırdığı silahı niyə hətta öz ordumuz belə daşımaq istəmir? Siz bunu xaricə necə satacaqsınız?

Yeri gəlmişkən, "İstiqlal"ın texniki xarakteristikalarında bir gülməli cümlə gözümə dəydi: "50 dərəcə şaxtaya davamlıdır". Görəsən, bu qədər şaxta bizdə harda olur? Ümumiyyətlə, dünya tarixində 50 dərəcə şaxtada hansı snayper döyüşü olub?



# TANAP və TAP-a daha bir təhlükə - yunan böhranı...

## Bu layihə üçün ən önəmli ölkə olan Yunanıstan defolt astanasındadır; Afinanın Avropa Birliyi ilə əlaqələrinin qırılmasından ən çox Rusiyanın "Türk axını" qazana bilər, əgər...

**Avropa Birliyinin (AB) iqtisadi-maliyyə cəhətdən ən zəif həlqəsi olan Yunanıstanla bağlı vəziyyət kritik olaraq qalır. Dünən "The Wall Street Journal" qəzeti özünün twitter səhifəsində Yunanıstan hökumətinin iyunun 30-da defolt elan etməyə qərar verdiyi haqda təcili xəbər yerləşdirib (virtualaz.org). Qəzet bu xəbəri yüksək vəzifəli Yunanıstan hökumət rəsmisinə istinadən yayıb.**

Yunanıstanın Beynəlxalq Valyuta Fonduna (BVF) 1.6 milyard dollar kredit borcunu ödəmək üçün iyunun 30-nadək vaxtı var idi. AB bu tarixdən Afinaya növbəti yardım proqramını dayandırır, yeni kreditlər olmayacaq. Məlumatda o da bildirilir ki, Yunanıstan borcu ödəmək iqtidarında deyil və bu gün rəsmən defolt qərarını elan edəcək.

Bundan əvvəl - iyunun 26-da Yunanıstan hökuməti beynəlxalq kreditorlarla *(BVF, Avropa Mərkəzi Bankı, Avropa Komissiyası)* borcların restruktizasiyasına və maliyyə yardımı proqramının uzadılmasına dair razılaşma əldə edə bilməmişdi.

Hər iki tərəf neçə vaxtdır bir-birini ittiham eləməklə məşğuldur: belə ki, kreditorlar Yunanıstan hökumətini islahatlar aparıb borcların qapadılması üçün vəsaitlər tapmaq istəməməkdə suçlayırsa, Afina da qarşı tərəfi "Avropa dəyərləri ilə bir araya sığmayan" şantaj siyasəti aparmaqda ittiham edir.

*****

Vəziyyətdən çıxış yolunu isə baş nazir Aleksis Tsipris ölkədə iyulun 5-də referendum keçirməkdə görüb. Həmin gün ölkə əhalisi bir suala cavab verməlidir: kreditorların şərtləri və təklif edilən islahatlar planına razıdırlarmı? Plan əsasən 8 bənddən ibarətdir və vergi sistemində dəyişiklikləri, pensiya islahatını, korrupsiyaya qarşı mübarizəni nəzərdə tutur.

Siyasi müşahidəçilərə görə, 5 iyul referendumunda ölkə vətəndaşlarının "yox" cavabını seçəcəyi ehtimalı daha yüksəkdir. Bunun da səbəbi yunanların onsuz da ağır olan vəziyyətini daha da ağırlaşdıran "sərt iqtisadiyyat" tələblərindən imtina etməsidir.

Qeyd edək iyunun 28-də hökumət ölkədəki bankların fəaliyyətinin iyulun 6-dək dayandırılmasına dair qərar verib və bankomatlardan nağd pul çıxarılmasına sərt məhdudiyyət qoyulub. Xəbər verilir ki, təkcə son istirahət günləri ərzində ölkə sakinləri bankomatları təxminən yarıya qədər boşaldıblar. Odur ki, prosesi müəyyən müddətə durdurmaq lazım gəlib. Aparatlar işini bərpa etdikdən sonra isə sakinlər gündə 60 avrodan artıq vəsait çıxara bilməyəcəklər.

*****




Defolt dedikdə borclu tərəfindən borc öhdəliklərinin yerinə yetirilmədiyinin elan edilməsidir. Başqa sözlə, bu, borcalanın müflis olması anlamını verir. Yunanıstanın defolt elan etməsinin Avropadakı maliyyə və fond bazarlarında ciddi çaxnaşmalara səbəb olacağı gözlənilir.

Analitiklər hesab edir ki, Yunanıstan ətrafında baş verən dramatik proseslər yeni qlobal böhrana da gətirib çıxara, Avropanın bir sıra banklarının çökməsinə gətirib çıxara bilər.

Yunanıstan üstəlik, həm "Türk axını" *(keçmiş adı "Cənub axını")* həm də TANAP, TAP qaz kəmərləri layihələri üçün tranzit marşrutun ən önəmli və həssas ölkəsi sayılır. Demək, bu ölkə ətrafında cərəyan edən proseslər sözügedən layihələrə də təsirsiz ötüşməyə bilər.

Yada salaq ki, "Türk axını" da, TANAP da Yunanıstanla sərhədə eyni nöqtədə çıxmalıdır. Oradan da o, TAP kəmərinə birləşdiriləcək. "Qazprom" isə "Türk axını" ilə nəql olunacaq təbii qazı həmin məntəqədə yaradılacaq habda müştərilərə təhvil verməyi planlaşdırır. Odur ki, xeyli vaxtdır Rusiya-Qərb qaz savaşı əslində daha çox Yunanıstan uğrunda gedirdi.

*****

Bəs Yunanıstanın xarici borclu ilə bağlı yaranmış böhran bu qaz kəmərlərinin taleyinə necə təsir edə bilər? Suala xarici iqtisadi ekspertlərin kifayət qədər maraqlı cavabı var. Onların fikrincə, Yunanıstanın defolt olması və ya ağır maliyyə durumu bu layihələrə güclü təsir etməyəcək, çünki kəmərləri ölkələr yox, qaz şirkətləri inşa edir. Yəni layihələri reallaşdırmaq üçün Yunanıstandakı pulları yox, başqa mənbələrin vəsaitlərini hesablamaq lazımdır.

**"İndi defolt haqda çox danışırlar. Çoxları düşünür ki, o halda Yunanıstan avrozonadan, perspektivdə isə hətta AB-dən çıxarılacaq. Əgər bu, baş verərsə, daha AB qanunvericiliyi Yunanıstana şamil olmayacaq. Demək, müvafiq surətdə kəmərlərin ölkə ərazisində tikintisi ilə bağlı müxtəliflik planında işlər daha da sadələşə bilər"**, - deyə rusiyalı iqtisadçı alim Vyaçeslav Kulaqin vestikavkaza-ya bildirib.

Bununla belə, analitik neqativləri də qeyd edib: **"Bu, dolayı faktor hesab edilə bilər. Yəni əgər Yunanıstan iqtisadiyyatı ilə bağlı durum həqiqətən böyük ölçüdə pisləşsə, o zaman ehtimal böyükdür ki, Yunanıstanda enerji resurslarına, o sırada təbii qaza olan ehtiyac aşağı düşəcək. Kəmərlər isə həm də Yunanıstan ərazisi üçün qaz çatdırışına hesablanıb. Ehtiyac azdırsa və ya yoxdursa, o halda verilən qazın həcmi də azalacaq ki, bu da müəyyən narahatlıq doğurur".**

*****

Ancaq nəzərə alanda ki, TANAP (TAP) həm də "Cənub axını"na, faktiki, rəqib layihədir, o zaman Yunanıstanın Avropa Birliyi ilə pozulan münasibətlərinin bu kəmərə əlavə diskamfort yaradacağı istisna deyil. Çünki o zaman rəsmi Afina kəmərlərlə bağlı seçimini AB-nin maraqlarını ciddiyə almadan, daha sərbəst şəkildə də verə bilər ki, bu da ən əvvəl Rusiyanın maraqlarına uyğundur.

Yox, Yunanıstan Avropa Birliyində də, avrozonada da qalsa, TANAP-a, TAP-a təhlükənin minimum olacağını söyləmək olar. Çünki o halda Afina məsələsində AB-nin mövqeyini ciddiyə almalı olacaq. Brüssel və Vaşinqton isə məsələdə "Türk axını"nın deyil, TANAP və TAP-ın tərəfindədir. Ona görə ki, Ukrayna böhranından sonra Avropanın Rusiya qazından asılılığını azaltmaq onun strateji hədəflərindən biridir.

❑ Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 141 (6169) 1 iyul 2015



# Qərb niyə Azərbaycanda "Suriya variantı" istəsin?

**Hikmət Hacızadə:** "Rusiya bizi stabil kölə kimi görmək istəyir, bizdən "dolya" gözləyir, Qərb isə..."

**Qubad İbadoğlu:** "Suriyaya bənzər Azərbaycan qonşularımızın arzusu ola bilər"

**Zahid Oruc:** "Rusiyanın və Qərbin Qafqazda hələ ki sabitlik istədiyini tam əminliklə söyləmək olar"

**Son illərdə gah Qərb dairələri Rusiyanı, gah da Rusiyanın rəsmi, yaxud qeyri-rəsmi şəxsləri Qərbi Azərbaycanda hakimiyyət dəyişikliyi ssenarisini hazırlamaqda, yaxud rəngli inqilablar həyata keçirmək cəhdində suçlayıb. Faktiki olaraq görünən və görünməyən müstəvilərdə Azərbaycan davası gedir.**

Son zamanlar isə Azərbaycanla bağlı daha təhlükəli xəbərdarlıqlar səslənir ki, bunlar da daha çox ölkə daxilində tirajlanır. Məsələ bundan ibarətdir ki, Azərbaycanın Liviya, Suriya kimi qan gölündə üzən ölkələrə çevrilməsi planının masa üzərində olmasından çox danışılır. Sonuncu dəfə deputat Fazil Mustafa "Yeni Müsavat"a açıqlamasında ABŞ-ın belə bir niyyətindən bəhs edib. Ancaq buna qədər ən müxtəlif səviyyələrdə, hətta Prezident Administrasiyası rəhbərinin müavini Novruz Məmmədov tərəfindən də "SOS" xəbərdarlığı edilib. Əcəba, bu gün od tutub yanan Orta Şərqdən mühacirət edən yüz minlərlə insanın problemini həll etmək iqtidarında olmayan, hətta bununla bağlı Avropada böhran masası yaradan güclər növbəti qaynar nöqtə yaratmaqla nəyə nail ola bilərlər? Xüsusilə də Qərbin maraqlarının təmin olunduğu neft və qaz ölkəsi Azərbaycanın Suriyaya çevrilməsi həmin qüvvələrin nəyinə lazımdır?

**Politoloq Hikmət Hacızadə dedi ki, hakimiyyət mənsubları tərəfindən səslənən fikirlərlə qəti razı deyil:** "Qərb Azərbaycanı inkişaf etmiş və azad bir ölkə kimi görmək istəyir. Qərb istəyir ki, biz stabil şəkildə inkişaf edək və onunla, dünya ilə hər sahədə əməkdaşlığımızı davam etdirək, Qərbin kompyüterlərini, "motor"larını ala bilək, dünya təhlükəsizlik sistemində iştirak edək və s. Necə ki, II Dünya müharibəsindən sonra Qərb Almaniyanı, Yaponiyanı, Cənubi Koreyanı və s. inkişaf etdirib. Belə inkişaf üçün Qərb bizdən düzgün seçkilər, söz azadlığı, vətəndaşlarımızla insani rəftar istəyir. Bunlarsız stabil inkişaf mümkün deyil. Budur, Qərbin həqiqi istəyi".

Bəs ümumiyyətlə, Azərbaycanı Suriya və ya Liviyaya çevirmək istəyən, hakimiyyəti dəyişmək istəyən qüvvə, ölkə varmı? Yeri gəlmişkən, qərbpərəstlər bu mövzuda Rusiyanı nişan verir...

H.Hacızadə isə fərqli düşünür: "Qərbin fikri hakimiyyəti dəyişmək deyil, düzgün seçki keçirməkdir! Belə seçki olmasa, stabil inkişaf da olmayacaq. Azərbaycanı Suriyaya çevirmək istəyən ölkə yoxdur. Rusiya da Azərbaycanın stabilliyini istəyir.

Amma fərq bundadır ki, Rusiya bizi stabil kölə kimi görmək istəyir, bizdən "dolya" gözləyir. Qərb isə bizi inkişaf etdirib bizimlə ticarət aparmaq istəyir. Türklər demiş, "biz bunun farkında olmalıyıq".

**İqtisadçı alim Qubad İbadoğlu isə hesab edir ki, Qərbə sabit və dayanıqlı Azərbaycan lazımdır:** "Odur ki, Qərbin Azərbaycanı Suriyaya çevirmək istədiyi barədə iddiaları əsassız hesab edirəm. Suriyaya bənzər Azərbaycan Ermənistan, Rusiya və İran kimi qonşularımızın arzusu ola bilər".

**Deputat Zahid Oruc "Yeni Müsavat"a bildirdi ki, Qərbin Cənubi Qafqazda "fələstinləşdirmə" planı haqda dövriyyəyə çıxarılan təhlillər regionda maraqları olan dövlətlərin bir-birini işğalçılıqda suçlaması təbliğatından doğur:** "Əsl həqiqətdə sovetlər birliyinin dağılmağa doğru getdiyi illərdə milli-etnik müharibələri törətmək istəyi bir çox dövlətlərdə güclü idi. Rusiya mərkəzdənqaçan subyektləri silahla cəzalandırmağı qərara almışdı, Amerika isə sülhün əldə olunması üçün əvvəlcə bütün milli subyektlərin vuruşub zəif düşməsi və ən sonda vasitəçilik missiyasına ehtiyac duyulmasına hesablanan bir xətti izləyirdi. Hadisələrin inkişafı Birləşmiş Ştatların ssenarisinin qalib gəldiyini göstərdi. Baxın, MDB məkanındakı bütün münaqişələrin çözümündə əsas tərəflərdən biri məhz rəsmi Ağ Ev oldu. Lakin məsələ bununla bitmədi. Regionun siyasi arxitekturası sürətlə dəyişməyə başladı və Qərb məlum müharibələrin əldən saldığı ölkələrin sərvətlərinə sahib olmaq üçün təhlükəsizlik kartı ilə uğurla oynamaqda davam etdi. İndi 25 il əvvəlki dövrün tarixi təcrübəsinə söykənərək, Qafqazda Suriya hadisələri kimi davamlı vətəndaş qarşıdurmalarını gözləmək yanlış olardı. Çünki Yaxın Şərqdən fərqli olaraq, burada resurslar və iqtisadiyyatda hökmranlıq Qərbin əlindədir. Ona görə də uzunmüddətli qeyri-sabitlik, yaxud genişmiqyaslı müharibələri gözləməyin".

**Lakin Z.Oruc hesab edir ki, Ermənistandakı son hadisələri tamam ayrı bucaqdan təhlil etməyə ehtiyac yaranıb:** "Çünki ənənəvi yanaşmalar bizi həqiqətdən uzaqlaşdırır. Bəli, Sərkisyan Rusiyadan hətta belə ağır sanksiyaların Moskva üçün doğurduğu nəticələrə baxmayaraq, müxtəlif iqtisadi yardımlar almağa ümid bəsləyir. Ona görə də son aksiyalar hazırkı rejimin əlində mühüm təzyiq vasitəsidir ki, Kremldə əyləşənləri vəziyyətin dramatik məcrada inkişafının təhlükəsini anlasınlar. Yeni Qərb Ermənistanda "ikinci cəbhə" açarsa, bu, həqiqətən də Rusiyanın qüvvələrinin bölünməsi demək olar. Asimmetrik qaydada bir neçə məkanda vuruşmaq elə də asan deyil. Lakin bütün mitinqlərin Qərbin təşkil etdiyini və növbəti Avromaydan hesabına rusiyayönümlü iqtidarların taxtdan salındığına dair versiyalar uydurmadır. Ermənistanda 2000-dən artıq qərbyönümlü qeyri-hökumət təşkilatının olmasına və bütün diaspora-lobbi mərkəzlərinin Moskva ilə savaş aparan dövlətlərdə yerləşməsinə rəğmən İrəvanda hökuməti devirmək xalqın gücü daxilində olan məsələ deyil. Ona görə Qərb sadəcə yaranmış vəziyyətdən istifadə etmək istəyir. Çünki ağır sosial-iqtisadi şərait fonunda Sərkisyan devrilərsə, onun yerinə gələn qüvvə Rusiyanın razılığı olmadan heç bir köklü dəyişikliklərə nail ola bilməyəcək". **Deputatın fikrincə, Azərbaycan onun çevrəsində cərəyan edən hadisələrin gətirdiyi qeyri-sabitlik dalğasını yaxşı görür:** "Mənə elə gəlir ki, biz Ermənistandakı hadisələrin sadəcə passiv seyrçisi deyilik. Yox, qətiyyən orada vətəndaş qarşıdurması törənsə, Qarabağa hücum planına start veriləcəyini nəzərdə tutmuram. Çünki Moskva və Bakı arasında yaxınlaşmanın bu qədər dərin xarakter daşıdığı bir dönəmdə razılaşmalardan kənar hərbi əməliyyatlara baş vurmaq son dərəcə risklidir və hətta humanitar-iqtisadi nəticələrinə görə əsl avantüraya çevrilərdi. Bütün bunları nəzərə alaraq, Rusiyanın və Qərbin Qafqazda hələ ki sabitlik istədiyini tam əminliklə söyləmək olar."

❑ **E.PAŞASOY**

# Rusiyanın 200 milyonluq jestinin pərdəarxası



**Natiq Miri:** ""Kremlin həm xarici, həm də daxili siyasəti yalan üzərində qurulub"

**Məlum olduğu kimi, Rusiya Ermənistan ordusunu silahlandırmaq üçün düşmən ölkəyə 200 milyon dollar dəyərində maliyyə vəsaiti ayırıb. İndiyə qədər dəfələrlə düşmən ölkəyə Rusiyanın vaxtaşırı bu cür yardımlarının şahidi olmuşuq. Maraqlıdır ki, yardımların əksəriyyəti kredit adı altında həyata keçirilib.**

Bu cür hadisə ilk dəfə 1996-cı ildə yaşanıb. Rusiya hökumətinin Ermənistana uzaqvuran raketlər də daxil olmaqla, 1 milyard dollar dəyərində silah və sursat hədiyyə etdiyi ortaya çıxıb. Daha sonra 2008-ci ildə Rusiyanın Ermənistanın Gümrü şəhərində yerləşən 102 saylı hərbi hissəsindən Ermənistan ordusuna silah-sursatın ötürülməsini sübut edən sənədlər yayılıb. Həmin vaxt Azərbaycan XİN Rusiyanın Ermənistana 800 milyon dollar dəyərində hərbi texnika və sursat verməsi barədə məlumatlarla bağlı bəyanat yayıb.

Rusiya ilə rəsmi Bakının münasibətlərinin yaxşı olduğu bir vaxtda Azərbaycana yox, Ermənistana bu jestin arxasında nə durur?

**Politoloq Natiq Miri hesab edir ki, Azərbaycanla Ermənistan fərqli missiyası olan ölkələrdir:** "Azərbaycan ayaqda dura biləcək qüdrətli bir ölkədir. Bu yöndə də öz fəaliyyətini davam etdirir. Onu nəzərə almaq lazımdır ki, Azərbaycan türk etnosundan ibarət bir xalqdır. Türk etnosunun hansı qüdrətə malik olduğunu, gələcəkdə bütövlükdə toplumlar içərisində hansı gücə malik olduğunu Rusiya yaxşı bilir və daim buna görə narahatdır. Ancaq Ermənistan Rusiya tərəfindən yaradılmış bir qondarma respublikadır. Bu gün Ermənistan Rusiyanın bir əyaləti olaraq fəaliyyət göstərir. Rusiya öz geosiyasi maraqları kontekstində siyasi alət olaraq Ermənistandan istifadə edir. Ermənistan regionda Türkiyənin qarşısını almaq üçün yaradılmış bir respublikadır. Bu heç kəsə sirr deyil. Eyni zamanda Ermənistan Türkiyə və Azərbaycan arasında əngəl olmaq üçün coğrafi bir məkan olaraq xüsusi seçilib. Buna görə də Rusiyanın bütün zamanlarda düşmən ölkəyə yardımı davam edəcək. Amma Azərbaycan tam fərqli bir ölkədir. Rusiyaya yaxınlaşmağa rəğmən, Azərbaycan dövlət maraqları naminə müstəqil qərarlar qəbul edir. Bu da təbii ki, Rusiyanın xoşuna gəlmir".

**Natiq Miri Rusiyanın bütün siyasətinin yalan üzərində qurulduğunu bildirdi:** "Kremlin həm xarici, həm də daxili siyasəti yalan üzərində qurulub. Onların bu cür yalanlarına Azərbaycan inanmalı deyil. Düşünürəm ki, bütün təzyiqlərə baxmayaraq, Azərbaycan Qərbə inteqrasiya xəttini davam etdirməlidir. Ermənistanda baş verən son hadisələr göstərdi ki, Rusiya heç vəchlə öz alətini itirmək fikrində deyil".

❑ **Cavanşir ABBASLI**



# Kimlər vəzifəyə gətiriləcək?

Azər RƏŞİDOĞLU

## Avropa Oyunlarının başa çatması ilə cəmiyyətdə belə gözləntilər artdı - kadr islahatları nə zaman başlayacaq və kimlər öz postlarını itirəcəklər?

**Onu vurğulamaq lazım gəlir ki, mövcud siyasi elitanı tam tərkibdə qorumaq imkansızdır və kadr rotasiyaları qaçılmaz görünür. Artıq uzun müddətdir ki, hakimiyyət dəhlizlərinə yeni simalar gətirilir və faktiki olaraq yeni siyasi elita formalaşdırılmaqdadır. Yeni siyasi elita ilə Heydər Əliyev komandasının müqayisəli təhlili onu deməyə əsas verir ki, birincilər ikincilərə bir çox parametrlərinə görə uduzurlar. Kifayət qədər maliyyəyə və sosial bazaya malik olan "köhnə qvardiya" daha sanballı görünür. Elə bu amil postlarını itirmiş və ya itirməkdə olan "köhnə qvardiya" təmsilçilərini revanş götürməyə şirnikləndirir. Ehtimal etmək olar ki, H.Əliyev məktəbinin müdavimləri parlament seçkilərinə qədər ambisiyalarını reallaşdıra bilmək üçün ən radikal addımları atacaqlar.**

"Dərin klassik qruplaşma" indiki qruplaşmalarla müqayisədə daha geniş əlaqəyə və nüfuza malikdir.

Bu siyahıda sabiq baş prokuror Eldar Həsənovun adının yenidən hallandırılması da təsadüfi sayıla bilməz. Bu baxımdan, gözlənilən iqtidardaxili savaşın miqyasının da geniş olacağını ehtimal edə bilərik.

Onu nəzərə almaq lazım gəlir ki, son zamanlar aparılan kadr dəyişiklikləri zamanı "ikinci hakim ailə"nin maraqları daha çox təmin olunub. Hakimiyyətdə olan veteranlar yavaş-yavaş təsir dairələrini itirməkdədirlər. Lakin situasiyanın qeyri-adiliyi ondan ibarətdir ki, Azərbaycanın siyasi şahmat lövhəsində son dərəcə maraqlı, standartlara sığmayan gedişlər edilməkdədir. Əgər bir neçə il öncə, hakimiyyətdaxili savaşın əsas iştirakçıları kimi "köhnə qvardiya" və "ikinci hakim ailə" təsnif edilirdisə, hazırkı mərhələdə "dərin klassik klan" ilə parlament seçkilərində daha çox mandat əldə etmək istəyən "yenilər" arasında bir centlmen anlaşmasının olduğu nəzərə çarpır.

Bu baxımdan, aparılacaq kadr dəyişikliyi elə iqtidar dəhlizlərinin özündə yeni müxalifətin və koalisiyanın formalaşdıra biləcəyini ehtiva edir. Prinsip etibarilə, yaranmaqda olan koalisiya kifayət qədər güclü komandanın formalaşa biləcəyinin xəbərçisidir.

Öncələr də qeyd etmişdik ki, Azərbaycanda yeni maliyyə bölgüsünün qarşısını ala bilməkdən ötrü Qərb siyasi dairələri hazırkı məmur korpusu siyahısında ölkənin növbəti nazirlərini və baş nazirini axtarırlar və bu istiqamətdə danışıqlar getdiyi barədə də məlumatlar dolaşmaqdadır. Həmin fiqurların iqtidarını möhkəmləndirə bilməkdən ötrü, müxalifətin önəmli bir simasının gələcək koalisiyaya qoşulma ehtimalı da müzakirə edilməkdədir. Heç də təsadüfü deyil ki, veteran məmurlardan birinin növbəti baş nazir olacağı və onun radikal müxalifət liderləri ilə koalisiyaya girəcəyi barədə məlumatlar hər iki tərəfə yaxınlığı ilə seçilən şəxslər tərəfindən yayılır.

Yuxarıda göstərilən "köhnə qvardiya" ilə koalisiya yaratmaq istəyi də "ikinci hakim ailə"yə bunun qarşısını almaq üçün lazımdır.

Lakin belə siyasi gedişlərin sonu heç də həmişə uğurlu olmur. Hər halda, vəzifəsini itirməklə kifayətlənmək, həbsxanaya düşməkdən daha cəlbedicidir. Yağ-bal içində yaşamağa vərdiş eləmiş "köhnə qvardiya" nümayəndələri üçün radikal addımlar atmaq xeyli dərəcədə risklidir. Odur ki, yeni yaranmaqda olan koalisiya təmsilçiləri, eyni zamanda "dərin klan" nümayəndələri bəyanatlarında ehtiyatlı olmağa üstünlük verirlər...



# "2" alan rayonların sabiq deputatları danışdı

**Orta məktəblərdə keçirilən buraxılış imtahanları təhsilimizin keyfiyyətinin bir daha acınacaqlı durumda olduğunu sübut etdi. Şagirdlərin daha çox ana dili və riyaziyyat fənlərindən bilik səviyyələrinin aşağı olduğu məlum olub.**

Belə ki, Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının elan etdiyi nəticələr əsasında savadsız rayonların siyahısı açıqlanıb. Siyahıya Sabirabad rayonu başçılıq edir. Bu rayonun şagirdlərinin 47%-i ana dili, 50%-i isə riyaziyyatdan "2" alıb. Daşkəsən rayonunda bu nəticə müvafiq olaraq 44 və 49, Ağcabədidə 39 və 46 faizdir. Bu siyahını Gədəbəy və Hacıqabul rayonları davam etdirir. Gədəbəydə "2" alanlar müvafiq olaraq 41 və 37, Hacıqabulda isə 36 və 44 faizdir.

**Sabirabadın keçmiş deputatı Pənah Hüseyn** hesab edir ki, açıqlanan nəticələr Azərbaycan təhsilinin göstəricisidir: "Məncə, bu, bütövlükdə Azərbaycan təhsilinin bərbad vəziyyətdə olmasının göstəricisidir. Bu gün siyahıda Sabirabad var, sabah başqa rayon ola bilər. Diqqət yetirsəniz, görərsiniz ki, aşağı nəticə göstərən rayonlar arasında elə də ciddi fərqlər yoxdur. Neçə illərdən bəri idi ki, təhsilin vəziyyəti barədə həyəcan təbili çalınırdı. Bu sahədə vəziyyətin yaxşılaşmaması, xərclənən külli miqdarda dövlət vəsaitinin nəticə verməməsi düşündürücüdür. Bu, Azərbaycanın dövlət, cəmiyyət, millət olaraq qarşısında ciddi suallar qoyur. Açığı, müəyyən cavabları da özündə əks etdirir. Ölkədə bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də islahatlara ciddi ehtiyac var. 150-200 manat maaş alan müəllimlər olan ölkədə bundan artıq təhsil səviyyəsini gözləmək olmaz. Olduqca acınacaqlı bir haldır".

**Gədəbəydən olan sabiq deputat və iş adamı Nazim Məmmədov açıqlanan statistikadan təəssüfləndiyini dilə gətirdi:** "Əfsus ki, Gədəbəy ana dili və riyaziyyat fənnindən alınan nəticələr əsasında geridə qalmış 4-cü rayondur. Dəfələrlə qeyd etmişəm ki, müasir Azərbaycanın yerləşdiyi ərazidə ilk müasir məktəblərdən bir neçəsi hələ 19-cu əsrdə Gədəbəydə Semens qardaşları tərəfindən yaradılıb. Gədəbəydə təhsil almış və Azərbaycan elmi, mədəniyyəti, fəlsəfəsi , ictimai şüuru və digər sahələrində yetişmiş alimlər ordusu, elə bu məktəblərin yetirməleri olub. Bir neçə akademik, yüzlərlə professor, saysız-hesabsız elmlər namizədi vermiş Gədəbəy rayonunun təhsil sistemi son vaxtlar acınacaqlı durumdadır. Bunun da kökündə duran səbəb əhalinin çox hissəsinin kəndləri tərk etməsidir. İmkansız insanlar, yaşlı nəsil kəndlərdə qalıb. Bildiyimiz kimi, 90-cı illərdən başlayaraq, əhalimizin çox hissəsi Bakı, Sumqayıt və ətraf rayonlarda məskunlaşmağa məcbur oldular".

**Sabiq deputat orta məktəblərdə şagirdlərin sayının az olmasından da danışdı:** "Bu səbəbdən məşhur məktəblərin əksəriyyətində baxırsan ki, 11-ci sinifdə 5-6 şagird olur. Bunun dəfələrlə şahidi olmuşam. Bunun kökündə duran səbəblər təbii ki, iqtisadi miqrasiyadır. Fənn müəllimlərinin olmaması və ali məktəbi bitirənlərin ucqar rayonlara getməmələri də bunu yaradan səbəblər sırasındadır. Etiraf etməliyik ki, bu gün də müəllimlərin maaşları aşağıdır. Eyni zamanda yerlərdə icra orqanları, təhsil şöbələrinin müdirləri, məktəb direktorları yerlibazlıq, qohumbazlıq, bu və ya digər səbəblərdən rüşvətxorluğa, korrupsiyaya uğrayıblar, təhsilə ayrılan vəsaitlər mənimsənilir. Gədəbəy ayrıca ada deyil ki, ölkədə baş verənlər ora təsir etməsin. Fənn müəllimlərinin çatışmaması, neqativ halların olması Gədəbəyin son vaxtlarda adının belə siyahılarda çəkilməsinə səbəb olur. Bundan gədəbəyli, ziyalı olaraq, çox təəssüf hissi keçirirəm. Bütün bunların aradan qaldırılması istiqamətində biz də əlimizdən gələn işləri görürük. Mən cənab nazir Mikayıl Cabbarovu daim dəstəkləmişəm, bundan sonra da dəstəkləyəcəm. Cənab nazirə müraciət edirəm ki, digər bölgələrə olduğu kimi, Gədəbəyə də diqqət artırılsın, hesab edirəm ki, burada təşkilati məsələlər də öndə olmalıdır. Yerli icra hakimiyyətləri nə qədər ki, təhsil şöbələri üzərində dominantlığı həyata keçirəcək, nəticələr daha da pisləşəcək".



**Pənah Hüseyn:** "150-200 manat maaş alan müəllimləri olan ölkədə bundan artıq təhsil səviyyəsi gözləmək olmaz"



**Nazim Məmmədov:** "Bundan gədəbəyli, ziyalı olaraq, çox təəssüf hissi keçirirəm"

❑ Cavanşir ABBASLI

# Bakıda 35 şagird qızıl və gümüş medala namizəddir

**Bu il Bakı şəhərində fəaliyyət göstərən məktəblər tərəfindən XI sinfi başa vuran 111 şagirdin qızıl və gümüş medalla təltif olunması üçün namizədliyi irəli sürülüb. Bu barədə modern.az saytının sorğusuna cavab olaraq Bakı Şəhəri üzrə Təhsil İdarəsindən məlumat verilib. Bildirilib ki, Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən 111 şagirdin arasında seçim edilib, seçimə əsasən 35 şagirdin namizədliyi Azərbaycan Respublikası Təhsil Nazirliyinə göndərilib.**

Qeyd edək ki, Təhsil Nazirliyi hansı şagirdlərin qızıl və ya gümüş medallar alacağını iyul ayında açıqlayacaq.

Məzunların qızıl və ya gümüş medalla təltif olunması ilə bağlı namizədlərin seçilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 14 yanvar tarixli 8 nömrəli qərarı ilə təsdiq olunmuş "Ümumi təhsili xüsusi nailiyyətlərlə başa vuran məzunların qızıl və ya gümüş medalla təltif olunma qaydası"na əsasən həyata keçirilir. Həmin qərara uyğun olaraq təhsil naziri müvafiq əmr imzalayır.

# İslam Universitetinin tələbəsi olmaq istəyənlər xüsusi komissiyadan keçəcək

**Bakı İslam Universitetinin tələbəsi olmaq istəyən abituriyentlərin sənəd qəbuluna başlanılır. Universitetdən "Trend"ə bildiriblər ki, Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK) əmrinə əsasən, 2015/2016-cı tədris ili üçün Bakı İslam Universitetində təhsil almaq istəyən abituriyentlərin seçilməsi məqsədilə Dini-Psixoloji Komissiya yaradılıb.**

İyulun 25-də 3-cü ixtisas qrupu üzrə imtahan verəcək abituriyentlər iyul ayının 13, 14, 15, 16, 17-də saat 9:00-dan 13:00-dək universitetdə fəaliyyət göstərən Dini-Psixoloji Komissiyaya müraciət etməlidirlər.

Bununla yanaşı, mayın 17-də 3-cü ixtisas qrupu üzrə imtahan verən və 100-dən artıq bal toplayan, lakin Dini-Psixoloji Komissiyadan keçməyənlər də yuxarıda qeyd olunan tarixlərdə təşkil olunacaq komissiyaya yenidən müraciət edə bilərlər.

YENİ MÜSAVAT
N 141 (6169) 1 iyul 2015



# Partiya sədrləri Avropa Oyunlarının yekunlarını qiymətləndirdilər

## "Xeyli insan bir anlıq da olsa özünü bayramda hiss elədi, bayram yaşadı, amma..."

**Artıq tarixə qovuşmuş Avropa Oyunlarının yekunları ilə bağlı bir sıra siyasi partiyaların rəhbərləri öz fikirlərini "Yeni Müsavat"la bölüşüblər.**

**Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn** bildirdi ki, Avropa Oyunlarından Azərbaycana müasir idman infrastrukturu, irimiqyaslı beynəlxalq tədbirlərin təşkili və keçirilməsi təcrübəsi, dünya idman tarixinə ölkəmiz adına bir səhifə və nəhayət, bayrağımız altında çıxış edən idmançıların medalları qaldı: "Xeyli insan bir anlıq da olsa özünü bayramda hiss elədi, bayram yaşadı. Qaliblərin maddi mükafatlandırılması da uşaqlar, gənclər, valideynlər arasında idmana meylin artmasına əlavə təkan verəcək. Birmənalı qəbul edilməməsinə baxmayaraq, son illərdə ilk dəfə olaraq siyasi partiyalar dövlət protokolunda iştirak etdilər. Bu müddət ərzində müsbət və ya mənfi olmasından asılı olmayaraq Azərbaycan beynəlxalq informasiya məkanında əsas gündəm mövzularından biri oldu. Dünyanın və cəmiyyətin diqqəti daha həssas və geniş şəkildə Azərbaycana, onun tarixinə, mədəniyyətinə, Qarabağ məsələsinə, eyni zamanda neft və siyasət, neft gəlirləri və svilizasiyalılıq, Azərbaycanda siyasi rejimin avtoritar xarakteri, siyasi məhbus, təqiblər, korrupsiya, demokratiya və tərəqqi, ölkənin geosiyasi seçimi kimi məsələlərə cəlb edildi. Azərbaycan dövlətinin beynəlxalq vəziyyəti, o cümlədən mövcud iqtidarın beynəlxalq imici baxımından ciddi problemlərinin olduğunu açıb göstərdi. Bir çox həqiqətlər bir daha təsdiqləndi. Heç bir parlaq, möhtəşəm şou bizim siyasi, sosial, iqtisadi, geosiyasi problemlərimizi, hətta iqtidarın öz problemlərini həll etmək bir yana, onların mövcudluğunu pərdələmək üçün yetərli deyildir. Ölkədə, siyasətdə ciddi, fundamental dəyişikliklər, islahatlar zəruridir. Bütün bunlar pozitivlərdir. Eyni zamanda Avropa Oyunlarının yekunu olaraq narahatedici hisslər və düşüncələr də azalmaq əvəzinə daha da artdı. Köhnə suallar qaldı və yeniləri yarandı. Biz hara gedirik? Pozitiv kimi dəyərləndirdiyimiz yuxarıdakı nəticələr naminə bu qədər məsrəfə və cəmiyyətin bütün yaşam sisteminin bu qədər gərginliyə məruz qoyulmasına ehtiyac vardımı? İkinci, üçüncü belə gərginliyə sistem davam gətirərmi? Bütün bunlar qiyamət zamanı ziyafət olmasın? Hakim siyasi elita, prezident oyunların ortaya qoyduğu əsas çağrını köklü dəyişikliklər və islahatların zəruriliyi çağrısını qəbul edəcək və adekvat addımlar atacaqmı? Yoxsa hər şey əvvəlki kimi davam edəcək və bu halın məntiqi sonucları labüddür? Mənim fikrimcə, bu suallara indiyə qədər baş verənlərə və mövcud vəziyyətə əsaslanaraq cavab vermək nə qədər təbii və məntiqli görünsə, doğru cavab bundan sonra nələrin olacağından asılıdır. Oyunlar başa çatdı. İdman, yarışlar olub və olacaqdır. Bizimkilər də həmişə qalib olsun! Lakin siyasətin əsasən idman üzərindən aparılması dövrü də nəhayət ki, qurtarmalıdır. Siyasət öz təbii gündəminə qayıtmalıdır. Qarabağ və işğal olunmuş torpaqların qaytarılması naminə milli birlik, beynəlxalq təcrid prosesini geri döndərmək, siyasi məhbus problemini həll etmək, köklü demokratik dəyişikliklərə, fundamental islahatlara başlamaq lazımdır. Hələ imkan və vaxt var".

**Ümid Partiyasının sədri İqbal Ağazadə bildirdi ki, Avropa Oyunlarının yekunları iki aspektdən təhlil olunmalıdır. Biri texniki-təşkilati baxımdan, ikincisi isə beynəlxalq reaksiya baxımından:** "Texniki, təşkilati baxımdan kifayət qədər uğurlu keçdi. Hesab edirəm uğurlu alındı. Beynəlxalq reaksiyalara gələndə isə Avropa Oyunlarına beynəlxalq reaksiya hakimiyyət üçün də, bütövlükdə Azərbaycan üçün də istənilən səviyyədə olmadı. Təbii ki, obyektiv, subyektiv səbəblər oldu. Avropa institutları çalışdılar ki, Azərbaycanla indiyə qədər danışdıqları məsələləri həll etmək baxımından Avropa Oyunlarından da yararlansınlar. Amma dəyişən bir şey olmadı. Dəyişən yalnız o oldu ki, münasibətlər bir qədər də gərginləşdi. Bu münasibətlərin gərginləşməsi isə nə Azərbaycana, nə də beynəlxalq təşkilatlara uğurlu nə isə vəd etmir. Ortaq məxrəc tapılmalıdır. Beynəlxalq təşkilatlarsa bəzən ortaq yolları tapmaq, Azərbaycan hakimiyyətinə ümumiyyətlə problemlərin beynəlxalq standartlara uyğun səviyyədə həll olunması üçün ciddi çaba xərcləyir. Güman edirəm ki, artıq bundan sonra masa arxasında Azərbaycana aid problemlərin çözülməsi istiqamətində danışıqlar olacaq. Oyunlar dövründəki ritorika indi daha yumşaq ritorika ilə əvəzlənəcək. Hər halda, Avropa Oyunları artıq tarixdir və bu tarixin odaqlanıb qalmaq yox, nə onun mənfilikləri, nə üstünlükləri istiqamətində köklənib qalmaq lazım deyil. Gələcəyə baxmaq lazımdır".

**AMİP sədri Yusif Bağırzadə Avropa Oyunlarını xalqın, dövlətin başını uca eləyən bir tədbir kimi xarakterizə etdi:** "Bütün dünyaya Azərbaycan sübut etdi ki, möhtəşəm mədəniyyəti, tarixi var, "Sarı gəlin"in müəllifi bizik, butanın sahibi bizik. İdmançılarımız da böyük uğurlara imza atıb dövlətimizin bayrağını dəfələrlə ucaltdılar. Azərbaycan sübut etdi ki, təkcə təşkilatçı kimi yox, eyni zamanda iştirakçı kimi də yüksək səviyyədə hazırlaşıb. Avropa Oyunlarında dünyaya bir daha sübut olundu ki, biz tolerant xalqıq. Avropa Oyunları bir sınaq idi. Azərbaycan bu sınaqdan üzüağ çıxdı".

**Azadlıq Partiyasının sədri Əhməd Oruc bildirdi ki, açılış və bağlanış mərasimləri dünya standartları səviyyəsində oldu:** "Bu birinci Avropa Oyunları olduğu üçün bir təcrübə yox idi. Açılış və bağlanış mərasimlərində Azərbaycanın milli mədəniyyəti çox parlaq şəkildə ortaya qoyuldu. İdmançılarımız kifayət qədər uğur qazandılar. İlk dəfə olaraq Azərbaycan Avropanın böyük idman dövlətləri sırasında ilk üçlüyə daxil ola bildi. Bilirsiniz ki, Avropada böyük idman dövlətləri sayılan İngiltərə, Almaniya, Fransa, İtaliya, Belçika kimi ölkələri Azərbaycan önləyərək Rusiyadan sonra ikinci yerə çıxdı. Bu, böyük nailiyyətdir. Ümumi oyunlara gəldikdə isə bura sərf olunan vəsaiti biz götürə bilmədik. Artıq bu, arxada qalıb. Məncə, Avropa Oyunları Azərbaycanın imicində pozitiv rol oynayacaq. Maddi itkiləri saymasaq, ümumilikdə mən pozitiv dəyərləndirirəm".

❑ Etibar SEYİDAĞA




# Hakimiyyətlə partiya sədlərinin növbəti görüşü nə vaxt olacaq?

## Sərdar Cəlaloğlu: "Hakimiyyət təmsilçisi ilə görüş bazarlıq deyil"

**Avropa Oyunları başa çatdı. Bundan sonrakı mərhələdə iqtidarla siyasi partiyaların növbəti görüşünün olub-olmayacağı maraq doğurur. Bu barədə danışan ADP sədri Sərdar Cəlaloğlu bildirdi ki, hələlik növbəti görüşün vaxtı bəlli deyil. Ancaq hər halda, bir qədər sonra bəlli olacaq: "Hakimiyyət təmsilçisi ilə siyasi partiyaların rəhbərlərinin görüşü iqtidarla müxalifət arasında bazarlıq deyil.**

Bu bir proses olmalıdır. Elə vaxt ola bilər ki, biz bu prosesdən konkret nəticə əldə edə bilərik. Ola bilər ki, müəyyən mərhələdə heç bir nəticə əldə edə bilmərik. Məsələn, Azərbaycanda 20 ildir seçkilər keçirilir və heç biri də demokratik keçirilmir. Amma hər dəfə seçkilər yaxınlaşanda bütün siyasi qüvvələr, cəmiyyət seçkilərə hazırlaşır. Bu baxımdan, siyasi dialoqa niyə gedilməsin. Müxalifətin özünün bu cür məsələlərə ikili yanaşması Azərbaycan üçün heç bir yaxşı nəsə vəd eləmir. Ona görə də mən siyasi dialoqun davam etdirilməsinin qəti tərəfdarıyam".



Sərdar Cəlaloğlu

S.Cəlaloğlu qeyd etdi ki, nəticənin olub-olmamasından asılı olmayaraq nə vaxt dialoq keçiriləcəksə, o, mütləq orada iştirak edəcək: "Biz bu dialoq ideyasını 2007-ci ildə irəli sürərkən bunu hərtərəfli düşünüb irəli sürmüşük. Yəni bu ideya bəzilərinin bu gün ağlına gələn şəkildə meydana çıxmayıb. Biz bunun həm elmi, həm fəlsəfi tərəflərini, başqa xalqların bu məsələdə təcrübəsini öyrənəndən sonra bu prosedurun vacibliyini dərk eləmişik və bununla da bağlı bilirsiz ki, ardıcıl olaraq təbliğat aparmışıq. İqtidarla müxalifət arasında siyasi dialoqu Azərbaycanın bugünkü vəziyyətdən çıxış yollarından biri kimi qəbul edirəm".

❑ E.SEYİDAĞA

YENİ MÜSAVAT
N 141 (6169) 1 iyul 2015




# Mərkəzi Bank kredit faizləri ilə bağlı qərar verdi

## Banklar narazıdır, ekspertlər isə məsələyə bir neçə istiqamətdən yanaşır

**Azərbaycan Mərkəzi Bankının (AMB) baş direktoru Rəşad Orucovun adından ölkəmizdə fəaliyyət göstərən bütün banklara və bank olmayan kredit təşkilatlarına (BOKT) məktub ünvanlanıb. Məktubda qeyd edilir ki, bir sıra banklarda istehlak kreditləri üzrə yüksək komissiya haqları tətbiq olunur və banklarda istehlak kreditləri üzrə faktiki illik faiz dərəcəsi (FİFD) bank sektoru orta faktiki illik faiz dərəcəsini əhəmiyyətli dərəcədə üstələyir. AMB qeyd olunanları nəzərə alaraq, banklara və BOKT-lara istehlak kreditləri üzrə tutulan komissiya haqlarının nağdlaşdırma da daxil olmaqla, kreditin məbləğinin 1 faizini keçməməsini tapşırır. (APA)**

Bankirlər isə AMB-nin məktubunu birmənalı qarşılamayıb. Bir sıra bank rəhbərləri bildirib ki, Mərkəzi Bankın məktubunda bir sıra sual doğuracaq məqamlar var. “Məktub bizə daxil olub, amma məktubda müzakirə mövzusu olan bir sıra məsələlər var. Mərkəzi Bank tələblərini detallaşdırıb konkretləşdirməlidir. Məsələn, məktubda qeyd olunur ki, istehlak kreditləri üzrə tutulan komissiya haqlarının nağdlaşdırma da daxil olmaqla... Mən bir bankir olaraq, istehlak kreditindən, məsələn, 3-4 faiz komissiya tuturdum və bu rəqəm kreditin müddətindən asılı idi. Bunun əslində mənə qalan komissiya faizi 2 faiz idi. Qalan komissiya isə müştərinin həyat sığortasına yönəlirdi. Yaxşı, mən 1 faiz qazancımdan imtina etdim. İndi Mərkəzi Bank sualımıza cavab versin ki, müştərinin həyat sığortası bura daxildir, ya yox? Açıq danışaq, mən öz gəlirim hesabına kimisə sığorta etdirə bilmərəm. Başqa sözlə, öz qazancım hesabına risklərimi bağlaya bilmərəm. Ona görə də Mərkəzi Bank bizə sığorta məhsulu üçün əlavə imkan verməlidir. Sığorta dərəcəsi oynaq deyil, stabildir” deyə, bankirlərdən biri deyib.

Digər bank rəhbərlərindən biri isə qeyd edib ki, artıq daxil olan məktubun tələbləri ilə bağlı banklar AMB ilə müzakirələrə başlayıb.

**İstehlak kreditləşməsi ilə aktiv məşğul olan banklardan birinin rəhbəri isə qeyd edir ki, AMB-nin yeni tələbi kreditlər üzrə faiz dərəcəsinə təsir edəcək:** “Hesab edirik ki, kredit faizləri müəyyən dərəcədə artacaq. Bu, qaçılmazdır”.

**İqtisadçı-ekspert Samir Əliyev isə qeyd edir ki, Mərkəzi Bankın banklara bu tipli göstərişlər verməsi onun səlahiyyətləri çərçivəsində deyil:** “Çünki bank qanunvericiliyinə görə, kreditlərin komisyon haqları banklar tərəfindən sərbəst müəyyənləşdirilir. "Banklar haqqında" Qanunun 36-cı maddəsinə görə, hər bir bank müştərilərlə bağladığı müqavilədə xidmət şərtlərini, o cümlədən faiz dərəcələrini, komisyon haqlarını müəyyən etməkdə sərbəstdir. Mərkəzi Bank bununla bağlı tövsiyə verə bilər".

**Ekspert əlavə edib ki, ümumilikdə bu təşəbbüs kredit bazarında rəqabətin yaranması baxımından müsbətdir və sui-istifadə hallarını aradan qaldıracaq:** “Hazırda banklar komisyon haqları hesabına kifayət qədər manevr etmək imkanına malikdirlər. Təsəvvür edin ki, müştəri cəlb etmək üçün faiz dərəcələrini aşağı təklif edirlər. Müştəri müqavilə imzalayan an məlum olur ki, böyük həcmdə komisyon haqqı ödəməlidir. Bir sözlə, banklar marketinq strategiyasına uyğun olaraq "aşağı faiz dərəcəsi - yüksək komisyon haqq" prinsipinə üstünlük verilir. Komisyon haqları hətta 6-7 faizə qədər çatır. Bu gəlir bankların gizli gəliri hesab olunur. Təsəvvür edin ki, illik faiz dərəcəsi 24 faiz olan 6 aylığa verilən kreditlərin effektiv faiz dərəcəsi təxminən 7 faizə bərabərdir. Yəni banklar komisyon haqları hesabına 6 aylıq qazancı birdəfəyə, bir günə qazana bilirlər. Ancaq komisyon haqları üçün 1 faizlik həddin qoyulması müştəriyə hansı bankın münasib şərtlərlə kredit verməsini müəyyənləşdirməyə imkan verəcək. Nəticədə kredit bazarında müəyyən rəqabət formalaşacaq".

**Ekspert Vüqar Bayramov isə qeyd edib ki, uzun müddət komissiya haqları vətəndaşları daha aşağı faizli kreditlər adı ilə cəlb etmək üçün bankların ən çox istifadə etdiyi metod idi:** “Mərkəzi Bank xeyli müddət gündəmdə saxladığımız təklifimizi axır ki, qəbul etdi: banklar müştərilərə verilən kreditlərin rəsmiləşdirilməsi üçün tutulan komissiya haqqını 1 faizədək məhdudlaşdıracaqlar. Bu, o deməkdir ki, kredit məbləğindən asılı olmayaraq bütün banklar ən çoxu 1 faiz komissiya haqqı hesablaya biləcəklər. Xatırladaq ki, biz Mərkəzi Banka real kredit faizlərinin yüksəlməsində əhəmiyyətli təsirə malik olan komissiya haqlarının tənzimlənməsini və haqlar üçün "qiymət tavanı"nın müəyyənləşdirilməsini həyata keçirməsini dəfələrlə təklif edirdik. Təəssüf ki, uzun müddət komissiya haqları vətəndaşları daha aşağı faizli kreditlər adı ilə cəlb etmək üçün bankların ən çox istifadə etdiyi metod idi. Bəzi kommersiya bankları hətta 8-10 faizlik komissiya haqları təklif edirdilər. Bankların "faiz tələsi" əslində çox sadə idi: banklar faizi elan edirdilər, amma komissiya haqlarının faizini bildirmirlər. Məsələn, 500 manatlıq kredit təklif edən bank 8 faizlik komissiya haqqı hesablayaraq həmin vəsaiti kreditin üzərinə əlavə edirdi. Bu zaman müştəri iki sənədə qol çəkirdi - 540 manatlıq kreditin alınması və 40 manatlıq komissiya haqqının ödənilməsi barədə. Amma ona 500 manat təqdim edilirdi. Buna baxmayaraq, kredit faizləri 500 manatdan deyil, 540 manatdan hesablanırdı. Bu isə daha yüksək faizin ödənilməsinə səbəb olurdu. İndi isə vəziyyət fərqli olacaq, 500 manatlıq kredit götürən şəxs cəmi 5 manat komissiya haqqı ödəyəcək. Bunu isə kredit formasında deyil, birbaşa nağd şəkildə edə bilər ki, bu da imkan verəcək ki, faizlər kreditin əsas məbləğindən 500 manatdan hesablansın. Deməli, bu halda nominal və real faizlər eyni olacaq və praktik olaraq müştəri aldadılmayacaq. Hazırda inkişaf etmiş ölkələrdə simvolik olan komissiya haqları tətbiq edilir. Bəzi ölkələrdə isə belə haqlar ümumiyyətlə yoxdur. Bu baxımdan, ölkəmizdə də oxşar praktikanın tətbiq edilməsi vacib idi. Bəs yeni qaydalar nəyi dəyişəcək? Əvvəla, bu, banklara imkan verməyəcək ki, kredit götürən vətəndaşlar üçün fərqli və daha yüksək faizlər hesablasınlar. İkincisi, komissiya haqlarının məhdudlaşdırılması real kredit faizlərinin aşağı düşməsinə səbəb olacaq. Üçüncüsü, artıq bankların ucuz və aldadıcı reklam kampaniyalarına son qoyulacaq. Nəhayət, kredit üçün banka müraciət edən şəxs öncədən öz xərclərini dəqiq hesablaya biləcək. Eyni zamanda komissiya haqları üçün tavanın müəyyənləşdirilməsi Mərkəzi Bankın göstərişi olduğu üçün bütün bankların buna qeyri-şərtsiz əməl etməsi vacibdir. Müştərilər də diqqətli olmalıdırlar ki, banklar onların kreditlərinə 1 faizdən artıq haqq hesablamasınlar. Eyni zamanda prosesə nəzarət üçün Mərkəzi Bankın monitorinqlərinin gücləndirilməsinə ehtiyac var".

❑ RÖYA

# “İctimai hərəkatıq, siyasi partiya deyilik...”

## ADR-in son aylarda fəaliyyəti müşahidə olunmur ; rəhbərlik isə deyilənlərlə razı deyil


Qubad İbadoğlu

**Müsavatın məlum qalmaqallı qurultayından sonra narazıların bir hissəsinin də toplandığı başqanlığa sabiq namizəd Qubad İbadoğlunun yaratdığı Azərbaycan Demokratiya və Rifah Hərəkatının (ADR) son aylarda sönük fəaliyyəti müşahidə olunur. Qurumun demək olar ki, ölkədə baş verən proseslərdə fəaliyyəti görünmür.**

Xüsusilə bu hal ADR-in bu il fevralın 21-də keçirilən konfransından sonra yaranıb. Məlum konfransdan sonra qurum indiyə qədər yalnız bir məsələ ilə bağlı gündəmə gəldi. O da Ədliyyə Nazirliyinə təşkilatın qeydiyyata alınması ilə bağlı müraciəti və rədd cavabı alması ilə.

Hazırda ADR-in rəhbəri, iqtisadçı Qubad İbadoğlu ABŞ-da xüsusi bir proqram çərçivəsində kurs keçir. Ondan təşkilatın son durumu ilə bağlı sosial şəbəkə vasitəsilə münasibət aldıq.

**ADR rəhbəri 2015-ci ili təşkilatlanma ili elan etdiklərini bildirdi:** “21 fevral 2015-ci ildə təsis konfransında qəbul etdiyimiz "2015-ci il üçün fəaliyyət proqramı"nda, bu il ADR Hərəkatının təşkilatlanması ili elan edilib. Bu proqramda ADR-in strukturlaşması, şəbəkələnməsi və portfelləşməsi istiqamətində də qarşısında məqsədlər qoyulub. Təşkilatlanma sahəsində fəaliyyətimiz davam edir. Mərkəzi strukturlar formalaşıb, regionda yerli təşkilatlar fəaliyyətə başlayıb, bu iş davam edir. Şəbəkələnmə ilə bağlı fəaliyyətimizdə də irəliləyişlər var, hərəkatın saytı fəaliyyətə başlayıb, xanımlar və gənclərlə iş üzrə ayrıca yaradılmış strukturlar bu sahədə iş aparır. Portfelləşmə işinə də başlamışıq. Bununla bağlı 3 dəfə ekspert müzakirəsi keçirmişik, il ərzində ADR-in proqram və konsepsiyalarını ictimai müzakirələrə təqdim edəcəyik. Bunlar hamısı təşkilatdaxili fəaliyyətlərdir və davamlı xarakter daşıyır".

**ADR rəhbəri onlardan gözləntilərin yüksək olduğunu da qeyd etdi:** “Görünür, ictimaiyyətin və mətbuatın gözləntiləri bizdən çoxdur, ona görə belə fikir formalaşır. Amma nəzərə almaq lazımdır ki, biz 4 aydır ki, yaranmışıq və ictimai hərəkatıq, siyasi partiya deyilik. Buna baxmayaraq, ictimai sektorda baş verən ən vacib məsələlərə dair mövqelərimizi də mütəmadi olaraq açıqlayırıq”.

**ADR-in sədrinin müavini Ellada Məmmədli təşkilatın passiv fəaliyyətdə olmadığını söylədi:** “ADR passiv fəaliyyətdə deyil , təşkilatlanma ilə məşğuldur. Hərəkat nizamnaməyə uyğun hərəkət edir. ADR konfransacan Azərbaycanın 35 rayonunu əhatə edərək, təsis olunmuşdu. Ondan sonrakı dövrdə təşkilati işləri gücləndirmək məqsədilə struktur fəaliyyəti formalaşdı, İcra Aparatı yaradıldı, sədrin müavinləri təyin olundu. Bakı şəhərində yerləşən rayonların təşkilat komitələrinin vahid bir orqanı yaradıldı. Hərəkatın təhsillə bağlı dəyirmi masası keçirildi. Təkliflər paketi hazırlanıb, müvafiq idarəetmə orqanlarına göndərilib. ADR Hərəkatının II sessiyası oldu. Az zaman içərisində yeni ərazi vahidləri üzrə ADR təşkilat komitələri yaradıldı. Bu yaxınlarda Gəncə şəhərində ADR Hərəkatının təşkilatı təsis olundu. Təşkilat komitələrinin böyük əksəriyyəti konfransa hazırlıq dövrünü yaşayır. Üzvlərin qəbulu prosesi gedir. Yəni, belə demək olarsa, ADR Hərəkatı öz fəaliyyətindədir. Bu ilin axırına kimi təşkilatlanma prosesinin başa çatdırılması nəzərdə tutulmuşdur. Sədrin müavinləri, İdarə Heyətinin üzvləri, İcra Aparatı və ADR Hərəkatı Məclisi sədrin Azərbaycanda olmamasına baxmayaraq, öhdələrinə düşən vəzifələri layiqincə yerinə yetirirlər”.

**Ellada Məmmədli quruma qarşı böhtan fikirlərinin səslənməsinin səbəblərindən danışdı:** “Sadəcə olaraq, görülən işlər mətbuatda az işıqlandırıldığından, rəqiblərimizin böhtan fikirlərinə yol açmışdır. Heç kim narahat olmasın, Azərbaycan Demokratiya və Rifah Hərəkatı tam fəaliyyətdədir. Qarşısına qoyduğu fəaliyyəti icra edir. Yaxın vaxtlarda səhiyyə ilə bağlı dəyirmi masa keçirilməsinə hazırlıq işləri görülür. Beynəlxalq əlaqələrin qurulması istiqamətində işlər həyata keçirilir”.

**Sədr müavini qarşıdan gələn parlament seçkilərinə də toxundu:** “Biz ictimai hərəkat olaraq, seçkilərdə iştirak edə bilmərik. Müstəqil namizəd olmaq istəyən üzvlərimiz olarsa, onlara yardımçı olacağıq”.

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 141 (6169) 1 iyul 2015

# Deputatın qohumu qumarda 200 minlik ev uduzub

## Əsabil Qasımovun tutdurduğu qarovulçunun məhkəməsi sona çatmaq üzrədir



**Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Eldar İsmayılovun sədrliyi ilə dələduzluqda ittiham olunan Rövşən Hacızadə və Qərib Əmiraslanovun cinayət işi üzrə məhkəmə istintaqı yekunlaşmaq üzrədir. R.Hacızadə deputat Əsabil Qasımovun yaratdığı, hazırda oğlunun idarə etdiyi "Karat" MTK-da çalışıb. Faktiki qarovulçu olsa da, rəsmi sənədlərdə adı MTK-nın icraçı direktoru kimi qeyd olunub. Buna görə də ittiham aktında da adı "Karat" MTK-nın icraçı direktoru kimi keçir və məhkəmə qarşısına da bu vəzifənin daşıyıcısı kimi çıxarılıb.**

İttiham aktında yazılıb ki, Rövşən Hacızadə tanışı Qərib Əmiraslanovla qabaqcadan əlbir olub tamah niyyəti ilə rəsmi sənədlərə bilə-bilə yalan məlumatlar daxil ediblər. Onlar MTK-nın Bakı şəhərində inşa etdiyi çoxmərtəbəli yaşayış binasında əvvəllər ayrı-ayrı şəxslərə satılmış 5 mənzili və 4 avtodayanacaq yerlərini təkrarən başqa şəxslərə satmaqla 1 milyon 112 min manat məbləğində pulu mənimsəyiblər. Buna görə də Rövşən Hacızadə Cinayət Məcəlləsinin 178.3.2 (dələduzluq külli miqdarda ziyan vurmaqla törədildikdə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) və 313-cü (vəzifə saxtakarlığı), Qərib Əmiraslanova isə 178.3.2-ci maddəsi ilə ittiham elan olunub.

**Məhkəmədə təqsirləndirilən şəxs qismində dindirilən R.Hacızadə ona elan olunmuş ittiham üzrə özünü təqsirli bilməyib. Deyib ki, ittiham üzrə bütün qanunsuzluqlar deputat Əsabil Qasımovun yaxın qohumları olan Taleh Qasımov, Umud Umudov, Qərib Əmiraslanov və İntiqam Umudov tərəfindən törədilib. Mənzil və avtomobil yerlərinin satılması barədə sənədlər Əsabil Qasımovun təhriki ilə yazılıb:** "Karat" MTK-da heç bir vəzifədə işləməmişəm, heç bir səlahiyyətim olmayıb, heç kimin pulunu elə keçirmək üçün mənzil və ya avtodayanacaq yerləri satmamışam. "Karat"




MTK-da heç bir vəzifəm olmadığından vəzifə saxtakarlığı törətməmişəm. Əsabil Qasımov və onun yaxın ətrafı öz saxtakarlıqlarını gizlətmək məqsədilə mənə şər, böhtan atırlar".

R.Hacızadənin ifadəsi məhkəmənin onu direktor kimi mühakimə etməsinə mane olmayıb. Ona direktora aid suallar verilib. Təbii ki, qarovulçunun direktora aid suallara cavab verməsi də mümkünsüz olub.

Məhkəmə qarşısına çıxarılan deputatın qohumu Qərib Əmiraslanov isə ona elan olunmuş ittihamla özünü qismən təqsirli bilib. İstintaq materialları arasında Q.Əmiraslanovun ifadəsi var. Həmin ifadəsində Q.Əmiraslanov mənzili qumar borcuna görə Ağdam rayonundan olan Yusif Əfsəriyə verdiyini gizlətməyib. Deyib ki, qumarda Yusif Əfsəriyə külli miqdarda pul uduzub. Həmin məbləğin bir hissəsini nağd ödəyib, qalan 205 min manat borcun əvəzinə isə "Karat" MTK-dan mənzil vermək barədə razılığa gəliblər. Deputatın qohumu R.Hacızadəyə deyib ki, X.Şuşinski küçəsi 12 saylı binadakı 4 otaqlı mənzili Y.Əfsərinin qardaşı oğlunun adına sənədləşdirməkdə kömək etsin.

**R.Hacızadənin vəkili Ceyhun Yusifov deyir ki, müdafiə etdiyi şəxsin bu cinayətlə ümumiyyətlə əlaqəsi yoxdur Vəkilin sözlərinə görə, istintaq qərəzli xarakter daşıyıb, cinayətin açılmasına, əsl cinayətkarların müəyyən edilməsinə, cinayət işinin obyektiv araşdırılmasına deyil, əsl cinayətkarları gizlətmək məqsədilə həyata keçirilib:** "Nə istintaq zamanı, nə də ki, məhkəmədə Rövşən Hacızadə ona elan olunmuş ittihamlarla özünü təqsirli bilməyib. Bu halları nəzərə alan məhkəmə öncə məhkəmə istintaqının zərərçəkmişlərin ifadəsi ilə başlanılmasını məqsədəuyğun hesab etdi. Rövşən qəti şəkildə bu işin qurma, özünün isə qurbanlıq olduğunu bildirdi. Bununla yanaşı, Rövşən Hacızadə dələduzluqda ittiham olunduğu əmlakla bağlı mötəbər sübutları məhkəmə baxışına təqdim edəcəyini israrlı şəkildə dedi. Rövşən Hacızadə məhkəməyə bu iş üzrə "zərərçəkən"in Əsabil Qasımov olduğunu və istintaqa zərərçəkən kimi təqdim olunanların hamısının onun öz adamları olduğunu dedi".

**Onu da qeyd edək ki, R.Hacızadənin bacısı Güllü Hacıyeva mətbuat konfransı keçirərək ölkə başçısına müraciət edib:** "Qardaşım Rövşən barəsindəki həbs-qətimkan tədbirinin ləğvinə və cinayət işi üzrə təqsirləndirilən şəxs kimi tanınmasına son qoyulması üçün aidiyyəti üzrə göstərişlər verilməsini və əsl cinayətkarların cinayət məsuliyyətinə cəlb edilməsinə köməklik göstərilməsini xahiş edirik. İnanıram ki, müraciətimizdən sonra deputat adına xələl gətirən, günahsız insanları həbs etdirərək dövlətdən narazı salmağa çalışan Əsabil Qasımov barəsində qanuni tədbir görüləcək. Bizim haqsız olaraq məruz qaldığımız bu əzab və iztirablara son qoyulacaq".

**Məhkəmənin iş üzrə verəcəyi qərarı da təqdim edəcəyik.**

❑ **E.HÜSEYNOV**

# Bakıda dəhşətli qəza: bir ailənin 3 üzvü öldü

**İyunun 28-də Bakı-Şamaxı yolunda ağır qəza baş verib. Aznews.az xəbər verir ki, Baş Dövlət Yol Polis İdarəsindən ans press-ə verilən məlumata görə, qəza yolun 41-ci kilometrliyində qeydə alınıb.**



Yolun Biləcəri istiqamətində keçən hissəsində 1963-cü il təvəllüdlü Əliəhməd Məhəmməd oğlu Mustafayevin idarə etdiyi 99 GO 932 nömrə nişanlı "NİVA" markalı avtomobillə 1984-cü il təvəllüdlü Anar Nəriman oğlu Aydınovun idarə etdiyi "NİVA" markalı 36 AA 022 nömrə nişanlı avtomobil toqquşub.

Qəza nəticəsində 3 nəfər ölüb, 2 nəfər yaralanıb. Hadisə zamanı Anar Aydınov və onun sərnişinləri 1943-cü il təvəllüdlü Gülümxanım Musa qızı Aydınov, 1979-cu il təvəllüdlü Pərvanə Kamran qızı Aydınova ölüb. Avtomobildə olan digər sərnişin, sürücünün övladı, 2011-ci il təvəllüdlü Elgün Anar oğlu Aydınov və digər avtomobilin sürücüsü də ağır yaralanıb.

Qeyd edək ki, qəza saat 17 radələrində baş verib. İlkin ehtimala görə, havanın isti olması sürücülərin idarəetmə qabiliyyətini aşağı salıb və qəza baş verib.

Faktla bağlı araşdırma aparılır.

Respublika Baş Dövlət Yol Polisi İdarəsi havaların isti keçməsi ilə əlaqədar sürücülərə müraciət edib. İdarənin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Kamran Əliyev açıqlamasında bildirib ki, sürücülərə soyuducu sistemi olmayan avtomobillərdən günün isti vaxtlarında mümkün qədər istifadə etməmək tövsiyə olunur. İdarə rəsmisinin sözlərinə görə, yayda qəzaların əksəriyyəti günorta saatlarında baş verib.

# Axtarışa verilən meyxanaçı Vahid Qədimin yeri bilindi



**Bakı Şəhər Baş Polis İdarəsi tərəfindən axtarışa verilən tanınmış meyxanaçı Vahid Qədimin sorağı Rusiyadan gəlib. Publika.az-ın əldə etdiyi məlumata görə, dələduzluqda təqsirləndirilən meyxanaçı iki ildən artıqdır ki, Rusiyada yaşayır. Məlumatı meyxanaçının sənət dostları da təsdiqləyib.**

**Tanınmış meyxanaçı Ağamirzə Məmmədov** Vahid Qədimin iki ildən artıqdır ki, Rusiyada yaşayıb, sənətlə məşğul olduğunu bildirib: "Vahid iki ildən çoxdur ki, Bakıda yaşamır. Ailəsi ilə birgə Rusiyaya köçüb, oradan sorağını da alırıq. Eşitdiyimizə görə, Vahid orada da meyxanaları ilə məşhurdur, sevilir. Amma buradan niyə köçüb getdiyinin səbəbini bilmirəm".

**Meyxanaçı Namiq Məna da** həmkarını sakit təbiətli, istedadlı söz ustadı kimi tanıdığını deyib: "Bizim aramızda elə də dostluq əlaqələri olmayıb. Lakin aramızda yaş həddi o qədər də çox olmadığından yaradıcılığı barədə kifayət qədər məlumatlıyam. Bir yerdə çox çıxışlarımız olub. Deyə bilərəm ki, çox istedadlı, daim öz üzərində çalışan, normal insan idi.

Onun axtarışda olması barədə məlumatı efirdən izlədim və çox təəssüf etdim. Bir daha deyirəm, onun heç vaxt pis hərəkətini görməmişəm. Yəqin ki, olanlar barəsində ciddi araşdırma aparılacaq. Buna görə də hələ ki bu barədə qəti bir söz demək olmaz".

Qeyd edək ki, Azərbaycanın tanınmış meyxanaçısı axtarışa verilib. Bu barədə Bakı Şəhər Baş Polis İdarəsinin saytında məlumat yerləşdirilib. Məlumatda qeyd olunur ki, 1973-cü il təvəllüdlü Səfərov Vahid Ağabala oğlu Cinayət Məcəlləsinin 178-ci (dələduzluq) maddəsi ilə təqsirləndirilir.

Meyxana aləmində Vahid Qədim kimi tanınan V.Səfərov bu ilin yanvarından axtarışa verilib.

Onu da qeyd edək ki, Vahid Qədim bir müddət öncə də polislə qarşı-qarşıya gəlib. O, "Bacım oğlu" adlı meyxanasına çəkdirdiyi klipində polisin təqibindən yayınmağa çalışıb.

❑ **Xalidə GƏRAY**

# "Royalbank"ın sabiq filial müdiri beynəlxalq axtarışda




**"Royalbank"ın sabiq filial müdiri Rinad Məmmədli beynəlxalq axtarışa verilib. Lent.az-ın İnterpola istinadən verdiyi məlumata görə, 1982-ci il təvəllüdlü R.Məmmədli mənimsəmə və ya israf etmə, pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması, vəzifə saxtakarlığı kimi cinayət əməllərində təqsirli bilinir.**

R.Məmmədli məhkəmə prosesindən yayındığı üçün ölkədaxili axtarışa verilib və daha sonra onun ölkəni tərk etdiyi məlum olub.

Qeyd edək ki, "Royal Bank"ın Xəzər filialının sabiq müdiri Rinad Məmmədli, filialın xəzinədarı Rasif Əliyev, mütəxəssisi Ayaz Şirəliyev və başqaları qabaqcadan əlbir olaraq pul vəsaitlərinin vətəndaşlara verilməsi barədə saxta kredit müqavilələri, məxaric orderləri və sair rəsmi sənədlər tərtib etməklə 459 min 571 manat məbləğində pul vəsaitini mənimsəməkdə ittiham olunublar.

Bundan başqa, Rinad Məmmədov taladığı pulun 163 min 338 manatını Abşeron rayonu, Qobu qəsəbəsində əldə etdiyi 0,1 ha torpaq sahəsində inşaat materiallarının istehsalı sexi, inzibati bina və sair tikililərin inşasına və təsis etdiyi "Caspian-017 Production" MMC-nin adından kafel-metlax yapışdırıcısının istehsalına sərf edərək cinayət yolu ilə əldə etmiş olduğu külli miqdarda pul vəsaitlərini leqallaşdırıb.

2013-cü ildə Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Rinad Məmmədov, Rasif Əliyev, Ayaz Şirəliyev, Ramin Kərimov 3 il, Tamara Quliyeva, İftixar Həsənov, Orxan Ağayev, Samir Atakişiyev 2 il sınaq müddəti olmaqla, şərti cəza alıblar. Digər təqsirləndirilən şəxslər Rauf Qasımov və Mübariz Bayramovun hər birinin barəsində 1000 manat cərimə cəzası kəsilib.

Həmin hökmdən narazı qalan Baş Prokurorluq apelyasiya protesti verib. Prokurorluq protestində birinci məhkəmə instansiyası məhkəməsinin hökmünün dəyişdirilməsi və mühakimə olunan şəxslərin barəsində ittiham hökmünün çıxarılmasını istəyib. Prokurorluq təqsirləndirilən şəxslərin məhkəmə zalından həbs edilməsini apelyasiya protestində qeyd edib.

YENİ MÜSAVAT
N 141 (6169) 1 iyul 2015

# Apteklərdə dərmanlar vahid qiymətə satılmır

## Əczaçı: "Dərmanların baha və ya ucuz satılmasının bizim üçün fərqi yoxdur"

**İyunun 3-də baş nazir Artur Rasizadə dərmanlara vahid qiymət qoyulması haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, dərmanlar Azərbaycanın bütün apteklərində vahid qiymətə satılacaq və dərman qutularının üzərində onların qiyməti göstəriləcək. Hesablama üçün 10 ölkədəki qiymətlər nəzərə alınıb. Bu ölkələr Türkiyə, Fransa, İtaliya, İspaniya, Portuqaliya, Yunanıstan, Polşa, Macarıstan, Bolqarıstan və Sloveniyadır.**




Bu yeniliyin tətbiqi zamanı Türkiyənin, Avropa ölkələrinin və bir çox başqa ölkələrin təcrübəsi əsas götürülüb. Bazis qiymətinin üzərinə topdan və pərakəndə satış qiyməti əlavə ediləcək. Dərmanın dəyəri artdıqca satış üçün qiymətə əlavə olunan faiz azalacaq. Məsələn, bazis qiyməti 10 manat olan dərman topdan satışda 13 manat 98 qəpik, apteklərdə isə 16 manat 78 qəpiyə satılmalıdır. 10 manatlıq dərmanın satış qiyməti bazis qiymətindən 67 faiz artıq olacaq. Ancaq dərmanın maya dəyəri artdıqca üzərinə gələn faiz azalır. Məsələn, bazis qiyməti 50 manat olan dərman 60 faiz artıq məbləğlə satışa çıxarılacaq. Maya dəyəri 100 manat olan dərmanda isə bu göstərici 50 faiz təşkil edəcək. Bəs hazırda apteklərdə bu sərəncama əməl edilirmi, yoxsa yenə də eyni dərmanlar müxtəlif qiymətə satılır?

Suallarımıza cavab tapa bilmək üçün metronun "Neftçilər" stansiyası yaxınlığında yerləşən bir neçə aptekə baş çəkdik. Apteklərdən gündəlik həyatda daha çox istifadə edilən bir neçə ağrıkəsicinin qiymətini soruşduq. Ağrıkəsici olan "Spazmaqol" dərmanının qiymətini eyni ərazidə yerləşən üç fərqli aptekdən soruşduq. Dərmanın qiyməti apteklərin hər birində fərqli idi. Belə ki, dərman 70-80 qəpik və 1 manata satılırdı. Digər ağrıkəsici olan "Aksenford" isə 30-40 qəpik arasında satılırdı. "Stramon" isə bir aptekdə 5, digərlərində isə 10 və 20 qəpiyə satılırdı.

**Aptek işçilərindən dərmanlara qoyulan vahid qiymət sisteminə münasibətlərini öyrəndik. Əczaçı Elmira Əliyeva verilən sərəncamı müsbət qarşıladığını dedi:** "Dərman elə bir şeydir ki, kasıb-varlı baxmadan hər kəs almağa məcbur olur. Bəzən xəstələr ucuz dərman tapmaq üçün günlərlə aptek gəzməli olurlar. Buna artıq ehtiyac qalmaması çox yaxşıdır".

**Digər aptek işçisi Rəşid Mustafayev isə hələ ki bunun tətbiq edilmədiyini bildirdi:** "Dərmanların baha və ya ucuz satılmasının bizim üçün fərqi yoxdur. Biz aylıq maaşımızı alırıq. Çox vaxt dərman almağa gələn yaşlı insanlar elə bilirlər ki, biz dərmanın qiymətini özümüzdən qoyuruq. Burada dərmanların qiyməti maksimumdan yuxarı satıla bilməz. Məsələn, "Spazmaqol" dərmanının maksimum qiyməti 1 manatdır. Yəni 1 manatdan ucuz satıla bilər, amma baha yox".

**Alıcı İsmayıl Quliyev bu qaydanın tətbiqini təqdir etdi:** "Ümid edək ki, bu qərar da kağız üzərində qalmayacaq. Hələ ki adi ağrıkəsici dərmanların qiyməti bir aptekdə ucuz, digərində nisbətən bahadır".

Apardığımız müşahidələr onu göstərdi ki, apteklərdə bütün dərmanlar vahid qiymətə satılmır.

**❑ Günel MANAFLI**
**Fotolar müəllifindir**

## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

## Dünyaca məşhur olan Qırğızıstan balı və müalicəvi bal məhsulları Azərbaycanda

- *Arı südü*
- *Mumiya*
- *Möhtəşəm ağ bal*
- *İssık-Kul balı*
- *Esparset balı*
- Çayek balı
- *Karkıra balı və s.*

**RAMAZAN AYI İLƏ ƏLQAƏDAR OLARAQ ORUC TUTANLARA ENDİRİM**

**Xalisi yalnız bu ünvanda:** Bakı şəhəri, Neftçi Qurban küçəsi 119
**Tel:** (012) 491-23-82; (051) 922-15-71

## Elan

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**

**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 185 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-40.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**

**Tel: (050) 210-50-74**

**Özəl tibb müəssisəsinə 3-5 saata gündə işləmək üçün təqaüddə olan, damara iynə vura bilən tibb bacısı tələb olunur.**

**Tel: (012) 437-88-05 (13:00-dan sonra)**
**(050) 213-88-05 (13:00-dan sonra 17:00-dək)**

**Oğuz rayonunun Calut kəndində "Azpetrol"la üzbəüz dağın ətəyində 4 hektar özəl sahədə yerləşən ferma satılır. İşərisində çoban evi, ofisi, yem dəyirmanı, istirahət guşəsi, daimi işığı və suyu var. Əlavə olaraq 5 hektar özəl torpaq sahəsi və bundan başqa müqavilə ilə 6 hektar biçin sahəsi və 126 hektar otlaq sahəsi var. Bunların hamısı birlikdə 450 min manat.**

**Əlaqə nömrəsi:**
**(055) 206-14-61,**
**(070) 335-90-15,**
**(050) 371-01-60**

## Təbrik

**Müsavat Partiyası Suraxanı rayon təşkilatı qocaman müsavatçı, əqidəli dost və ağsaqqalımız olan Mürsəl bəy Xurşıd oğlu Əliyevi doğum günü münasibətilə təbrik edir. Sizin kimi ağsaqqalı sıralarımızda görməkdən qürur duyuruq.**

**Sizə cansağlığı və getdiyiniz şərəfli yolda uğurlar diləyirik.**



# İş adamı özünü yandıracağını deyir

## Dönməz Məmmədov: "Məndən qanunsuzluqla aldıqları marşrutu Heydər Əsədovun bacanağının qardaşına tapşırıblar"

**İş adamı Dönməz Məmmədov Tiflisdəki səfirliyimiz qarşısında özünü yandıracaq. Bu haqda "Yeni Müsavat"ın əməkdaşına məlumat verən iş adamı deyib ki, Nəqliyyat Nazirliyinin səlahiyyətliləri ona başqa çıxış yolu qoymayıblar:**

"İllərdir ki, çalışdığımız, ailəmizi dolandırdığımız, xeyli insanın evinə çörək apardığı iş yerimizi əlimizdən aldılar. Məndən qanunsuzluqla aldıqları marşrutu kənd təsərrüfatı naziri Heydər Əsədova veriblər. Marşrutu Heydər Əsədovun bacanağının qardaşı Kamil Sadayoğluna tapşırıblar. Nəqliyyat Nazirliyinin təsisçisi olduğum "Amal-D" MMC-yə verdiyi və 2017-ci ilə qədər qüvvədə olan lisenziya havada qalıb. Başqa çıxış yolu görmürəm. Hazırda aclığı davam etdirirəm. Biri gün səfirliyin qarşısına gedib özümü yandıracağam. Bəlkə bundan sonra işə baxan oldu".

**D.Məmmədov deyib ki, nəqliyyat naziri Ziya Məmmədovun qudası olan kənd təsərrüfatı naziri Heydər Əsədova teleqram vurub:** "Teleqramla Heydər Əsədova bildirdim ki, marşrutu qanunsuz olaraq ona veriblər. Onu bu qanunsuzluqdan əl çəkməyə çağırdım. Heç bir reaksiya vermədi. Səfirliyin qarşısında özümü yandırmağa imkan verməsələr, Azadlıq meydanında özümü yandıracağam. Mən haqqımı onlara halal etmirəm".

Qeyd edək ki, D.Məmmədov "Yeni Müsavat"ın əməkdaşına deyib ki, sahibi olduğu "Amal-D" MMC şirkətinə məxsus "Daewoo" markalı 17 avtobus bu ilin mayında xətdən çıxarılıb və Bakı Şəhər Nəqliyyat Departamentinin cərimə meydançasına aparılıb. Həmin vaxt Azərbaycanda şikayətlərinə baxan olmayıb. Buna görə də Gürcüstana gedib və orada aclığa başlayıb. Bundan sonra Azərbaycana dəvət olunaraq BŞND-yə çağırıblar. Departamentdə deyilib ki, iyunun 20-nə qədər 509 saylı marşrut üzrə Nəqliyyat Nazirliyinin verdiyi lisenziyaya uyğun olaraq fəaliyyətinə şərait yaradılacaq. Lakin bu günə qədər BŞND həmin marşrut üzrə avtobusların hərəkətinin bərpa olunmasına imkan vermir. Bu səbəbdən də iş adamı kreditlə aldığı "Daewoo" markalı avtobusların kredit borclarını ödəyə bilmir.

**❑ E.MƏMMƏDƏLİYEV**

***P.S** Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.*

## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**

Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
N 141 (6169) 1 iyul 2015



# Ucuz ətin şorbası - birgünlük turlar

## Kasıbın gücü 21 günlük istirahətə, səyahətə çatmayanda başına gələnlər…

**Orta statistik azərbaycanlı üçün yay tətilinin təşkili qədər çətin ikinci məsələ yoxdur. Ən yaxşı halda 10-15 günlük ölkə xarici səyahət turu, ortabab halda bağ istirahəti, ən pis variantda isə... Üç nöqtələrin yerini boş qoyaq, hərə öz fantaziyasına uyğun seçim düşünsün. Amma kasıbın gözünün qurdunu öldürməsi üçün yerli turizm agentliklərinin birgünlük turları da var. Nisbətən ucuz, çatımlı kimi görünən, amma...**

### Lalə Mehdiyeva: "Vəd etdikləri yeməkləri vermirlər, adam ac qalır"

"Biz keçən il qızlarla bu turlardan birinə getdik. Birincisi, vəd olunan yeməkləri vermirlər, adam ac qalır. Məcbur olursan ordan əlavə nəsə alasan. Allah göstərməsin, bölgələrdəki turizm obyektlərini də tanıyırsız. 20 qəpiklik adi suyu adama 1 manata satırlar. Nəticədə ucuz istirahət adama ikiqat baha başa gəlir".

27 yaşlı bank işçisi Lalə Mehdiyeva ötən yay yerli turizm şirkətlərindən birinin sosial şəbəkədəki elanına aldanıb, birgünlük gəzinti həvəsinə düşənlərdən olub. Dediyinə görə, birincisi, yol yorğunu olub. İkincisi isə yemək problem olduğu üçün ikiqat xərcə düşüb.

### Birgünlük səfərlər 20 manatdan başlanıb, 33 manata qədər artır

Öncə yerli turizm şirkətlərinin birgünlük turlar adı ilə əhaliyə təqdim etdiyi turlar barədə. Turizm.az agentliyinin ölkədaxili turlar paketində Qəbələ, Şamaxı, Quba, Şəki-Qəbələ (ikigünlük), hətta və hətta çimərlik turları daxildir.

Başlayaq Qəbələ turundan. Ekonom paket turun qiyməti 22 manatdır, səfər qrupla birgə baş tutanda bu, 20 manata başa gəlir. Standart paket isə 33 manat, qrup endirimi 30 manatdır.

Turun baş tutması üçün minimum 35 nəfər toplaşmalıdır. 15 saat davam edən tur iştirakçıları səhər saat 06.30-da əvvəlcədən müəyyənləşdirilmiş məkanda - bu halda "Nərimanov" metrosu "Mc Donalds"ın qarşısında toplaşıb, yola düşürlər. 07:00-11:00 Bakı - Qəbələ yolu (Şamaxıda 15 dəq, fasilə), 09:00-09:30-da səhər yeməyi (Şamaxıda), 11:00 Qəbələ şəhərinə çatma.

**11:20 - 13:00** Atıcılıq Mərkəzində olma nəzərdə tutulub.

Nahar, daha sonra isə Tufandağ Qış-Yay Turizm kompleksində istirahət və əyləncə planlaşdırılıb. "QƏBƏLƏND" Gənclik Əyləncə mərkəzində istirahət *(buradakı attraksionlardan istifadə hər bir müştərinin öz hesabına ödənilir)* da turun növbət hissəsidir.

19:00 - 23:00 saatlarında isə Qəbələ - Bakı yoludur.

Daxili turlar arasında Lahıc turu da qeyd olunub. Turun qiyməti 32 manatdır, amma qrup endirimi 30 manat nəzərdə tutulub.

15 saatlıq tur səhər saat 7-də başlanır. 12-yə qədər qrup Lahıca çatır. Səhər yeməyi, Asma Körpü ekskursiyası, qəsəbə ərazisində bütün tarixi abidələrdə gəzinti, nahar yeməyi + samovar çayı, şəlalə ekskursiyasından sonra isə 17:30 - 18:00 -da çay fasiləsi, dönüşə hazırlıq, 18:00 - 22:00-da isə Lahıc - Bakı yolu nəzərdə tutulub.

Quba turunun məbləği 30 manatdır. Qiymətə isə nəqliyyat xidməti, səhər yeməyi, nahar yeməyi, Quba rayonunda ekskursiya, əyləncəli oyunlar, tur rəhbəri və fotoçəkiliş daxildir.

Bu arada "birgünlük səfər məni yorar" deyənlər üçün ikigünlük turlar da var. Bunlara Şəki-Qəbələ turu daxildir və adambaşına 79 manat təşkil edir. Bu halda 1 gecə, 2 günlük səfər, üstəgəl, gecələmə, səhər yeməyi və naharın məsrəfləri daxildir. Amma qiymət yüksək olduğu üçün müştərilər bu turlara o qədər də yaxın dayanmır. Qrup yığılmadığı üçünsə turlar gerçəkləşmir.



### "Nə gözün doyur, nə qarnın..."

### Ailəvi çimərlik turu - çimərliyə də turla gedilir?

Girişdə də qeyd etdiyimiz kimi, bu turların ən maraqlısı ailəvi çimərlik turudur. Nardarana nəzərdə tutulan turun məbləği 16 manatdır. Turun proqramına nəzər salaq:

9:00 -da şəhərdən çıxış, 9:30 - 10:00 Bakı-Nardaran yolu, 10:00 çimərliyə çatma və besedkaların ailələrə təhvil verilməsi.

13:00 - 14:00. Nahar yeməyi *(ailədəki nəfər sayına görə menyu fərqlənir)*.

19:00-19:30. Bakıya qayıdış və Bakıya çatma.

Amma burda da incə nüanslar var. 4 nəfərlik ailə və ya xanımlı kollektiv(?) üçün 1 nəfərlik tur qiyməti 16 manatdır. 3 nəfərlik ailə və ya xanımlı kollektiv üçün 1 nəfərlik tur qiyməti 17 manatdır. 2 nəfərlik ailə və ya xanımlı kollektivdə 1 nəfərin qiyməti 21 manatdır. Tək xanım üçün çimərlik turunun qiyməti 33 manata başa gəlir.

"Bakı travel" şirkəti Qəbələyə 28 manata tur təşkil edir. Xidmətlərə "Yeddi gözəl" şəlaləsində gəzinti, nahar yeməyi, çay süfrəsi, mafiya oyunu, Qəbələ rayonunda gəzinti daxildir.

Eyni şərtlərlə Şamaxıya 28, Masallıya 30 manata getmək olar.

"Victory Tour" şirkəti Azərbaycanın bütün bölgələrinə səyahət təşkil edir. Qəbələ 33, Lahıc 33, Quba 31 manatadır. Bundan əlavə, 95 manat ödəməklə Şəkidə bir gecə, iki gün qalmaq olar.

Mənzərə təxminən belədir. Amma yazının girişində dediyimiz narazı vətəndaşları da yaddan çıxarmayaq. "Ucuz ətin şorbası olmaz" məntiqi birgünlük turlar üçün keçərlidir. Çünki bu halda turistlər verilən yeməkdən, onun keyfiyyətindən, miqdarından razı qalmırlar.

### Yol yaxındırsa, səhər yeməyi kolbasa-çörək, uzaqdırsa, yağ-bal olur?

Saytla müştəri qismində əlaqə saxlayıb, bəzi detalları dəqiqləşdirdik. Özünü agentliyin daxili turlar üzrə səlahiyyətli nümayəndəsi kimi təqdim edən gənc bildirdi ki, bu günə qədə turun yeməklərindən narazı qalan olmayıb. Əməkdaşımızın "bir çox turlarınızda vəd etdiyiniz səhər yeməyi əvəzinə kiçik bir buterbrod və meyvə şirəsi verirsiniz və insanlar bundan narazı qalır" iradına cavab olaraq operator dedi ki, Şamaxı kimi yaxın yerlərə təşkil olunan turlarda səhər yeməyi avtobusun içində baş tutur və bu zaman yol gedə-gedə bu formada səhər yeməyi məqbul sayılır. Amma uzaq məsafələrə olan səfərlər zamanı səhər yeməyi üçün mütləq yolüstü kafelərdən birində dayanırlar: **"Bu zaman da insanlar səhər yeməyində nə yeyirlərsə, biz də onu veririk. Yağ, bal, qaymaq, çay... Naharda da onun kimi. Bu günə qədər yeməyin miqdarından və keyfiyyətindən narazılıq edən olmayıb".**

Bu arada öyrənirik ki, ekonom paket turlara ancaq səhər yeməyi daxildir. Standart paketdə isə həm səhər yeməyi, həm də nahar nəzərdə tutulub.

3 nəfərlik ailə ilə yerli turizm şirkətlərindən biriylə Quba turuna çıxan Valeh adlı müsahibimiz isə deyir ki, ailələr gərək belə məsələdə ehtiyatlı olsun: **"Evdən yemək, yavanlıq götürmək lazımdır. Bəzən 20 nəfərlik qrupa 5 nəfərin menyusu miqdarında yemək verirlər. Nəticədə uşaq ac qalır, əlavə çay almalı olursan, samovar sifariş edirsən. Bunun da üzü astatından baha başa gəlir. Haranısa gəzmək istəyirsən, kolxoz yığıncağı kimi olur. Bizdə avtobus yolda nasazlamışdı deyə, səyahətin vaxtından oğurladılar. Nəticədə gəzməli olduğumuz yerləri gözə bilmədik, 10-15 dəqiqə baş aldadan kimi, bizi oralarda fırlatdılar və qurtardı. Nə qarnımız doydu, nə gözümüz. Adam fikirləşir ki, belə səfərdənsə pul yığıb normal Tiflis, Batumi istirahəti edəsən. Özü də bir həftəlik. Üstəlik, əsəbləşmirsən, istirahətini heç nə zəhər eləmir. Bizdə turizm hələ inkişaf etməyib, altını da bizim kimi kasıb camaat çəkir".**

Sonda... Bəlkə də yuxarıda yazdığım turlar macəra axtaran gənclər, qrup halında əyləncə axtaran məktəblilər üçün maraqlı ola bilər. Amma birgünlük turlar hələ standartlardan uzaqdır və kasıbın istirahət arzusunu gözündə qoymağa hesablanıb.

❑ **Sevinc TELMANQIZI**



# YENİ MÜSAVAT

Son səhifə

N 142 (6169) 1 iyul 2015




## Xurmanın çoxsaylı faydaları

Araşdırmalar xurmanın ürək-damar xəstəliklərindən və xərçəngdən qorunmaqda əhəmiyyətini ortaya qoyub. Türk yazıçı Mehmet Altanın "Səhradan gələn şəfa - xurma" adlı əsərində bu meyvənin faydaları sadalanıb.

Xurmanın tərkibindəki fosfor beynin ehtiyaclarını qarşılayır. Yorğunluğa faydalıdır. Xurmanın sinir sistemini rahatladan bir xüsusiyyəti də var. B1 və B2 vitaminləri vardır ki, bunlar da zehni və sinir sistemini rahatladıcı xüsusiyyəti ilə diqqət çəkir. Meyvə olaraq ən yaxşı sinə dərmanıdır. Bəlğəmə, nəfəs borusuna və öskürəyə faydalıdır. Xurma damarları yumşaldır və sərtliyin qarşısını alır. Qanı təmizləyir və təzyiqi tənzimləyir. Qəhvə və yağ qandakı xolestrolu yüksəldir. Ərəblər bol miqdarda qəhvə istifadə etsələr də araşdırmalarda ərəblərdə xolestrolun olmadığı qeydə alınmışdır. Səbəbi isə ərəblərin qəhvə və digər yeməklərin yanında mütləq xurma istifadə etmələri ilə izah olunur. Xurma böyrəklərin yuyulmasına yardım edərək böyrəyin fəaliyyətinə köməkçi olur. Məsanə (sidik kisəsi) və böyrək iltihabında şəfalıdır. Xurmanın suyu böyrək daşlarının parçalanmasına kömək edir. 6-7 xurma parçalanaraq bir stəkan suya qoyulur və bir neçə saat sonra süzülüb isidilərək gündə iki dəfə içilərsə 15 gündə böyrək daşını əridər.

# Ənvər Paşanın əşyaları satıldı

Türkiyə Cümhuriyyətinin tarixi şəxsiyyəti olan Ənvər Paşanın şəxsi əşyalarının satıldığı hərrac ötən gün start götürüb. Əşyalardan biri hissəsini hərbi muzey, bir qismini Yıldız sarayı muzeyi, qalanlarını isə kolleksiyaçılar alıb. Bildirilir ki, Ənvər Paşaya aid 122 ədəd əşyaların arasında ona aid hərbi forma, kepka, zabitlik diplomu, çənqəl-bıçaq dəsti, medallar, hərbi xəritə və fotoşəkillər, Ənvər Paşanın öz əli ilə çəkdiyi rəsmlər, həyat yoldaşı Naciyə xanıma aid fotolar, həmçinin sultan Rəşadın hədiyyə etdiyi qızıl və gümüş işləməli qılınc və "Purdey" markalı tüfəng olub.



Hərracda Ənvər Paşanın "Allah bizimlədir" yazılmış mərasim qılıncı 12 min (4 674 azn), sultan Rəşadın hədiyyə etdiyi qılınc 170 min (66 215 azn), yenə sultan Rəşadın hədiyyə etdiyi 1888-ci ildə istehsal olunmuş tüfəng 225 min (87 637 azn), qamçısı 50 min (19 475 azn), yapon imperatorluğu tərəfindən hədiyyə olunan harakiri bıçağı 40 min (15 580 azn), döyüş zamanı boynundan asdığı kiçik Qurani Kərim 15 min (5 842 azn), möhürləri hər biri 20 min (7 790 azn) və xüsusi bayrağı 80 min lirəyə (31 160 azn) satılıb.

## Dondurma haqqında bilmədikləriniz

**1.** Dondurma tək desert deyil, həm də çox faydalı məhsuldur.

**2.** Bir çox insanların fikrinə görə, dondurma anginaya səbəb ola bilər. Lakin bu belə deyil.

**3.** Normal miqdarlarda qəbul etdikdə (gündə 1 dəfə) dondurma kökəlməyə səbəb olmur.

**4.** Dondurma yeyən insan əhval-ruhiyyəsinin yaxşılaşmasını hiss edir

**5.** Dondurmanın qəbulu bəzi insanlarda baş ağrısına səbəb ola bilər.

**6.** Kalsium elementi ilə zəngin olan dondurma bu elementin defisitindən əziyyət çəkən hamilə qadınlar üçün olduqca xeyirlidir.

**7.** Xarici ölkələrdə ənənəvi şirin dondurma ilə yanaşı, duzlu, istiotlu, qızarmış kartof, pendir, soğan, göbələk və s. dadı olan dondurma satılır.

**8.** Rusiyada dondurmanı həm isti yayda, həm də soyuq qışda yeyirlər. Bu adət bir çox turistləri təəccübləndirir.

**9.** Yaxşı dondurmanın tərkibində kokos, palma və digər bitki yağları olmamalıdır.

**10.** Yaxşı dondurma ağappaq olmamalıdır.

**11.** Dondurma aldıqda fikir verin ki, onun qablaşması əzik olmasın.

**12.** Yaxşı dondurma çox gec əriyir, dərhal suya dönmür.





## Messi sevgisi bunu da etdi

Argentinada yaşayan fermer Santyaqo Menendes naməlum şəxslər tərəfindən oğurlanıb. Amma fermerin oğrularla Argentina yığmasının hücumçusu haqqında söhbəti onu ölümdən xilas edib. Məsələ ondadır ki, fermer cinayətkarlarla münasibəti qaydaya salmaq üçün futbol haqqında danışmağa başlayıb. Söhbətin gedişatında fermer əfsanəvi həmyerlisinin soyadını dəfələrlə qeyd edib. Messinin adını eşidən oğrular birdən yumşalıb. Fermer bildirib ki, pul ödəndikdən sonra oğrular onu öldürməyi planlaşdırıbmış, amma sonradan fikirlərini dəyişiblər.

"Əminəm ki, bu, Messiyə görə oldu" deyən fermer sağ qaldığı üçün sevinir. Oğurlandıqdan iki gün sonra Menendes pul verildiyi üçün girovluqdan buraxılıb.




**QOÇ** - Təcrübəli insanların köməyinə ehtiyacınız olduğundan Göy qübbəsi sizə kömək göstərəcək. Odur ki, ruh düşkünlüyünə qapılmayın. Sənədlərlə bağlı problemləri aradan qaldırın.

**BUĞA** - Bir çox məsələlərdə səhvlərə yol verirsiniz. Özünüzə aludə olmayın. Bəzən ətrafınızdakılardan məsləhət almağı da unutmayın. Axşamüstü maraqlı görüşlərin iştirakçısı ola bilərsiniz.

**ƏKİZLƏR** - Səfər planınız varsa, onu bəri başdan təxirə salın. Çünki ulduzlar bu təqvimdə sizə kifayət qədər ciddi işlər həvalə edəcək. İşgüzar sövdələşmələrdə sizi müvəffəqiyyət gözləyir.

**XƏRÇƏNG** - Fəaliyyətlə bağlı gərginliyiniz mümkündür. Yaxşı olar ki, bütün vacib işlərinizi təxirə salasınız. Riskli pul sövdələşmələrindən, məxfi danışıqlardan uzaq olmağa çalışın.

**ŞİR** - Şəxsi işlərinizdə əsaslı dönüş yaratmaq üçün şanslarınız var. Taleyinizdə əhəmiyyətli rol oynaya biləcək adamlarla əlaqələri dərinləşdirin. Bu gün səfərə çıxmaq da uğurludur.

**QIZ** - Bəxtinizdə kifayət qədər uğurlu bir tarix var. Əzmkarlığınızı artırmaqla bu müvəffəqiyyəti özünüzə və özünüzü ona yaxınlaşdıra bilərsiniz. Axşamsa qonaq getməyə çalışın.

**TƏRƏZİ** - Son zamanlar ciddi cəhdlərinizin boşa çıxması sizi məyus etməməlidir. Çünki bu dünyada hər kəsin bir şansı var. Siz də gözləməlisiniz. Bu günsə yalnız adi işlərin həlli ilə məşğul olmalısınız.

**ƏQRƏB** - Ümumi ovqatınızda gərginlik olsa da, qarşınızda duran vəzifələrin öhdəsindən gələcəksiniz. Günün ikinci yarısında isə şəxsi büdcənizdə müəyyən qədər artım ola bilər.

**OXATAN** - Uğurlu nəticəsinə tam əmin olmadığınız məsələlərə girişməyin. Yoxsa xoşagəlməzliklə qarşılaşacaqsınız. Bu təqvimdə kənardan kiminsə məsləhətilə addım atmamalısınız.

**OĞLAQ** - Reallıqdan uzaq düşməyin. Bütün planlarınızı yalnız xəyalınızda reallaşdırmayın. Yaxşı olar ki, konkret fəaliyyətə keçəsiniz. Ay bürcünüzdə olduğundan mübahisələrə yol verməyin.

**SUTÖKƏN** - Qarşılıqlı əlaqələrdə tədbirli olmağa çalışın. Əks təqdirdə müsahibləriniz tərəfindən aldadıla bilərsiniz. Qarşınızda gözəl perspektivlər durur. Odur ki, ruh düşkünlüyündən qurtulun.

**BALIQLAR** - Qarşılıqlı münasibətlər baxımından uğurlu olsa da, maddi cəhətdən mübahisəli bir gün yaşayacaqsınız. Özünüzü maksimum təmkinli aparın. Haqqınızı qanunlar çərçivəsində tələb edin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Obama qardaşının məktubunu satır



ABŞ prezidenti Barak Obamanın ögey qardaşı Abongo Malik Obama 20 il əvvəl ona yazılan məktubu satışa çıxarıb. Barak Obama 1995-ci ildə qələmə aldığı məktubda qardaşına siyasətin maraqlı olmadığını yazıb. "Seçkilərdə qalib gəlsəm də bu mənim ikinci işim olacaq, vəkil kimi çalışmağa davam edəcəyəm" yazan Obama qardaşına "birini tap və evlən, boş-boş gəzmə" deyə, zarafat da edib. Keniyada yaşayan Malik Obama prezidentin ona yazdığı 2 məktubu 15 min dollara satıb.

Səhifəni hazırladı: ŞAHNAZ


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300